## Hulusi Akar: "Azərbaycanla birgə təlimlərimiz davam edir"



**Türkiyənin milli müdafiə naziri Hulusi Akar Azərbaycanla birgə əməkdaşlıqdan danışıb.**

"Report" xəbər verir ki, nazir əməliyyatların, təlimlərin davam etdiyini bildirib.

"Türkiyə Silahlı Qüvvələri FETÖ-çulardan təmizləndikdən sonra daha güclü olub. Hazırda mübarizə davam edir. Müxtəlif dedi-qodular tamamilə əsassızdır. Əməliyyatlar, təlimlər həyata keçiririk. Azərbaycanla, Liviya ilə birgə addımlarımız davam edir", - Akar deyib.

## Erməni mətbuatında yayılan məlumat yalandır

Azərbaycan Ordusu qanunsuz erməni silahlı birləşmələrini atəşə tutmayıb



Azərbaycan Ordusunun bölmələrinin Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı birləşmələri istiqamətində guya atəş açması barədə erməni mətbuatında yayılan məlumat yalandır, təxribat və çaşdırıcı məqsəd daşıyır.

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

№ 134 (5656), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 2 avqust 2022-ci il (çərşənbə axşamı)



# Dövlət sərhədini pozan 27 nəfər saxlanılıb

**Ay ərzində dövlət sərhədini pozduqlarına görə 27 nəfər saxlanılıb. Bu barədə Dövlət Sərhəd Xidmətindən (DSX) məlumat verilib.**

Bildirilib ki, onlardan 21 nəfəri Azərbaycan Respublikası, 2 İran İslam Respublikası, 1 İraq, 1 Özbəkistan, 2 Pakistan vətəndaşları olub.

Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 19 halda 19 nəfər saxtalaşdırılmış pasport, Şengen vizaları və tarix möhürləri ilə dövlət sərhədini keçməyə cəhd göstərərkən saxlanılıblar.

*Xatırladaq ki, iyunda ayı ərzində dövlət sərhədini pozduqlarına görə 38 nəfər saxlanılmışdı. Onlardan 18 nəfəri Azərbaycan Respublikası, 5 İran İslam Respublikası, 2 Hindistan, 1 Özbəkistan, 6 Mərakeş, 2 Pakistan, 1 Qazaxıstan və 3 nəfəri Əfqanıstan vətəndaşları olublar.*




## Azərbaycanda meyit donorun anonimliyini qorumayanlar cərimələnəcək

**Azərbaycanda meyit donorun anonimliyini qorumayanlar cərimələnəcək.**

Bu, Prezident İlham Əliyevin İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanunu imzalaması ilə mümkün olub.

Dəyişikliklə orqan donorluğu və transplantasiya zamanı meyit donorun qohumlarına münasibətdə resipiyentin, resipiyentə və onun qohumlarına münasibətdə meyit donorun anonimliyinin qorunmamasına görə vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər 1000 manat məbləğində cərimə ediləcək.

Canlı donordan transplantasiya məqsədilə donor orqanların götürülməsi zamanı "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanunda nəzərdə tutulmuş tələblərə əməl olunmamasına görə vəzifəli şəxslər 2000 manat, hüquqi şəxslər 5000 manat məbləğində cərimə olunacaq.

## Bir addım atıldı...

Ərdoğan: "Taxılla yüklənmiş ilk gəmi Ukraynanın Odessa limanından yola düşüb"



**"Taxılla yüklənmiş ilk gəmi Ukraynanın Odessa limanından yola düşüb".**

"Haber Global" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Dünyanın diqqətlə izlədiyi taxıl böhranından çıxmaq üçün atılan addımın ölkəmizin səylərinin məhsulu olduğu hər kəs tərəfindən qəbul edilir. İndi bu gün bir addım atıldı, gəmi yola düşdü. Biz bu prosesi sağlam saxlamaq üçün əlimizdən gələni edirik", - Ərdoğan bildirib.

# İlk taxıl gəmisi Somaliyə göndərildi

Türkiyə ümid edir ki, razılaşma atəşkəsə və davamlı sülhə gətirib çıxaracaq







**Ukrayna taxılını daşıyan ilk gəmi Odessa limanını tərk edib. Bu barədə Ukraynanın İnfrastruktur naziri Aleksandr Kubrakov "Twitter"də bildirib. O deyib ki, bütün tərəfdaş ölkələrin və BMT-nin dəstəyi sayəsində İstanbulda imzalanmış Saziş tam şəkildə həyata keçirilib:**

"Qlobal qida təhlükəsizliyinin təminatçılarından biri olmaq bizim üçün vacibdir". Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, taxıl daşınması ilə bağlı təyyarəmizə düşəni edəcəyik. O, prosesin fasiləsiz və problemsiz davam etməsini arzu etdiyini bildirib: "Ümid edirik ki, razılaşma atəşkəsə və davamlı sülhə gətirib çıxaracaq". Məlumata görə, ilk taxıl yükü 16 gəmi konvoyla yola düşəcək. Gəmilərin ilk dayanacağı İstanbul olacaq. Gəmilər yola çıxdıqları andan etibarən PUA və peyklər tərəfindən izləniləcək. Boş və taxıl olmayan gəmilərin limanlardan çıxmasına icazə verilməyəcək.

(səh.3)

# Təxribatların bir sonu olacaq

Qarabağda hər qanunsuz silahlı Azərbaycan Ordusunun hədəfidir



**44 günlük Vətən müharibəsinin Azərbaycanın Zəfəri ilə yekunlaşmasına baxmayaraq, ermənilər hələ də təxribatların cəhd göstərirlər.**

İyulun 30-u günorta saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutub. Bölmələrimiz adekvat cavab tədbirləri görüb.

(səh.5)



## Türkiyə hərbi təyyarələrini Kiyevdən geri qaytarır

**Türkiyə Hərbi Hava Qüvvələrinin Kiyevdəki iki təyyarəsi tezliklə daimi bazalarına qayıda biləcək.**

"Report" xəbər verir ki, bu barədə Türkiyənin milli müdafiə naziri Hulusi Akar jurnalistlərə bildirib.

"Biz bu məsələni həm Rusiya, həm də Ukrayna ilə müzakirə edirik. Təyyarələr ilk fürsətdə geri qayıdacaq. Bunun yaxın günlərdə baş verə biləcəyini istisna etmirəm", - nazir deyib.

*Qeyd edək ki, Türkiyənin hərbi nəqliyyat təyyarələri fevralın 24-dən Kiyev Borispol hava limanındadır. Akarın Ukrayna və Rusiya hakimiyyət orqanları ilə danışıqlarında onların Türkiyəyə qayıtması məsələsi dəfələrlə müzakirə olunub.*

## Bakıya təcili eniş edən İsrail təyyarəsinin sərnişini ölüb



**Bakıya təcili eniş edən İsrail təyyarəsinin sərnişini ölüb.**

Heydər Əliyev Beynəlxalq Aeroportundan verilən məlumata görə, Təl-Əviv - Moskva (DME) marşrutu üzrə reys yerinə yetirən "El Al İsrael Airlines" aviaşirkətinin hava gəmisinin kapitanı sərnişinin səhhətinin kəskin şəkildə pisləşməsi ilə əlaqədar (ürəktutma) Heydər Əliyev Beynəlxalq Aeroportuna təcili enmək üçün müraciət edib.

*Təyyarə yerli vaxtla saat 12:44 dəqiqədə Bakı hava limanına enib. Təəssüflər olsun ki, sərnişin uçuş zamanı vəfat edib.*

## Ölən olmayıb

Son sutkada 102 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirusa 102 yeni yoluxma qeydə alınıb, 104 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib.

Məlumata görə, sutka ərzində koronavirusdan ölən olmayıb.

Ölkədə indiyədək 798 940 nəfər koronavirusa yoluxub. Onlardan 786 786 nəfər müalicə olunaraq sağalıb, 9 748 nəfər vəfat edib, aktiv xəstə sayı 2 406 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 128, hazırkı dövrədək isə 7 047 555 test aparılıb.*



## "Festivalda türk ruhu möhtəşəm idi, digər məsələlərə göz yummaq olardı"

Güllü Yoloğlu: "Tədbirin ideya müəllifi gecə-gündüz burada çalışıb, hətta fəhlə yerinə də işləyib"

(səh.4)



## Ərdoğanın yenidən prezident seçilmək şansı yüksəkdir

Cümşüd Nuriyev: "Əkrəm İmamoğlu ilə Mansur Yavaşın ona ciddi rəqib olacağını zənn etmirəm"

(səh.5)



# Səhiyyə Nazirliyi və İTSDA-nın vəzifələri artırılıb

**Prezident İlham Əliyev ”Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 26 dekabr tarixli 614 nömrəli, ”Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə” 2006-cı il 25 may tarixli 413 nömrəli, ”İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 6 sentyabr tarixli 1592 nömrəli fərmanlarında dəyişiklik edilməsi və ”İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 15 yanvar tarixli 251 nömrəli Fərmanının ləğv edilməsi haqqında fərman imzalayıb.**

Fərmana əsasən, Səhiyyə Nazirliyinin vəzifələri sırasına orqan donorluğu və transplantasiya sahəsində ”İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanuna uyğun olaraq tədbirlər görmək, o cümlədən bu sahədə əhalinin məlumatlandırılmasını təmin etmək, orqan donorluğu və transplantasiya prosesinin monitorinqini həyata keçirmək, eləcə də vahid uçot aparılması məqsədilə donorların, resipiyentlərin və donor orqanların vahid dövlət informasiya bazasını yaratmaq da əlavə edilib.

Bundan başqa ”İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Nizamnaməsi”nə edilən dəyişikliklə İTSDA-nın da vəzifələri artırılıb.

Dəyişikliyə əsasən İTSDA-nın vəzifələri sırasına insan orqanlarının və toxumalarının donorluğu və transplantasiya ilə bağlı ”Əhalinin sağlamlığının qorunması haqqında” qanunu ilə müəyyən edilmiş qaydada keyfiyyətə nəzarəti və tibbi fəaliyyətin təhlükəsizliyini, habelə bu sahədə əhalinin məlumatlandırılmasını təmin etmək də əlavə edilib.

# Avropa İttifaqı tərəfləri Brüsselə çağırdı

## Serbiya və Kosovo rəhbərləri müzakirələr aparacaq



**Avropa İttifaqı (Aİ) rəsmiləri Serbiya və Kosovo arasında yaşanan gərginliklə əlaqədar tərəfləri müzakirələr aparmaq üçün Brüsselə dəvət ediblər.**

Azərtac xəbər verir ki, bu barədə Avropa Komissiyasının sözçüsü Peter Stano bildirib.

O deyib ki, Aİ və üzv dövlətlər Kosovonun şimalında baş verən hadisələri yaxından və narahatlıqla izləyirlər. O, sabitlik və təhlükəsizliyə xələl gətirən, bütün vətəndaşların hərəkət azadlığına mane olan hər hansı razılaşdırılmamış və birtərəfli hərəkətlərin dərhal dayandırılmasının vacibliyini qeyd edib. Gərginliyin həllinin yeganə yolunun dialoq olduğunu vurğulayan P.Stano Serbiya və Kosovo rəsmiləri ilə daim təmasda olduqlarını, bu məsələdə NATO və ABŞ kimi beynəlxalq tərəfdaşlarla da əməkdaşlıq etdiklərini bildirib.

Avrokomissiyanın sözçüsü deyib ki, Aİ həll yolu tapmaq və bu cür gərginliyin yenidən yaranmasının qarşısını almağın yollarını müzakirə etmək üçün hər iki tərəfin rəsmilərini Brüsselə dəvət edib.

# Hədəf gizli iqtisadiyyatı aradan qaldırmaqdır

## Regionlarda yeni iş yerlərinin yaradılması vacibdir



**Bu, bölgələrə sərmayənin cəlb edilməsi məsələsini daha da aktuallaşdırır**

**Mərkəzi Bankın məlumatına görə, bu ilin iyul ayında ölkə üzrə kredit portfeli 18 milyard 320 milyon manat olub. Kreditlərin 14 milyard 201 milyon manatı Bakı şəhərinin payına düşüb. Bu o deməkdir ki, ümumi kredit qoyuluşunun 77 faizindən çoxu yalnız Bakı şəhərinin payına düşür.**

705 milyon manat kredit isə Abşeron-Xızı iqtisadi rayonun payına düşüb. Bu həm də o deməkdir ki, sözügedən iqtisadi rayon üzrə kreditləşməni nəzərə alsaq verilən hər 100 manatlıq kreditin 81 manatı Bakı və Abşeronun payına düşür. Bütün regionlar isə bütövlükdə hər 100 manatlıq kreditin cəmi 19 manatına sahib ola bilirlər.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, bölgələrdə aparılan son struktur və kadr dəyişikliklərinin əsas məqsədlərindən biri də rayonlarda iqtisadiyyatın müxtəlif sahələrinin inkişafına nail olmaqdır.** Deputatın sözlərinə görə, islahatlar bölgələrdə investisiya mühitinin daha da yaxşılaşdırılmasını və gizli iqtisadiyyatın minimumlaşdırılmasını hədəfləyir: ”Regionlarda yeni, xüsusən də ixtisaslı kadrlar üçün iş yerlərinin yaradılması çox vacibdir. Bu isə bölgələrə sərmayənin cəlb edilməsi məsələsini daha da aktuallaşdırır. Yerli investisiya qoyuluşlarında bank kreditləri xüsusi paya malik olmalıdır. Bununla belə, rəsmi statistika təsdiq edir ki, hələ də banklar bölgələri maliyyələşdirməkdə çox da maraqlı deyillər. Aydındır ki, özəl banklar kreditləşmədə müstəqil qərar verirlər və bu zaman risk amili daxil olmaqla fərqli faktorları nəzərə alırlar. Digər tərəfdən də, inzibati yollar ilə bankları kreditləşməyə istiqamətləndirmək də düzgün olmazdı. Bununla belə, bir sıra inkişaf etmiş ölkələrin praktikasında olduğu kimi bankların regionlarda biznesin maliyyələşdirilməsinə stimullaşdırılması və təşviq edilməsi çox vacibdir. Bu, bölgələrimizin daha çox maliyyə resursları əldə etməsinə və inkişafına təkan verə bilər”.

*Parlament üzvü vurğulayıb ki, monitorinqlər göstərir ki, bankların regionlara daha az kredit ayırmasının əsas səbəblərindən biri də rayonlarda yaşayan sahibkarlar üçün girov mexanizmi şərtlərinin ağır olmasıdır:* ”Banklar əksər hallarda kredit ayıran zaman paytaxtda girov tələb edirlər ki, əksər yerli sahibkarların bu imkanları olmur. O baxımdan, girov mexanizmi təkmilləşdirilməli və regionlarda fəaliyyət göstərən sahibkarlar üçün güzəştli kreditləri həcmi artırılmalıdır. İnkluziv və balanslı iqtisadi inkişafın güclənməsi üçün regionlarda fəaliyyət göstərən sahibkarların ucuz kreditlərə çıxış imkanlarının artırılması vacib şərtlərdəndir”.

**İsmayıl Qocayev**

# Azərbaycanda qanunla qadağan olunan şəxslərdən orqan götürənlər həbs ediləcək

**Azərbaycanda qanunla qadağan olunan şəxslərdən transplantasiya məqsədilə donor orqanının götürülməsinə görə cəzalar müəyyənləşib.**

**Bu, Prezident İlham Əliyevin Cinayət Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanunu imzalaması ilə mümkün olub.**



Dəyişikliklə qanunla qadağan olunan şəxslərdən transplantasiya məqsədilə donor orqanının götürülməsi 9000 manatdan 15 min manatadək miqdarda cərimə və ya 3 ilədək müddətdə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 4 ilədək müddətdə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Həmin əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və s. cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə 3 ilədək müddətə müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 3 ildən 5 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

Həmin əməl ehtiyatsızlıqdan şəxsin ölümünə səbəb olduqda 3 ilədək müddətdə müəyyən müəyyən vəzifətutma və ya müəyyən fəaliyyətlə məşğulolma hüququndan məhrum edilməklə və ya edilməməklə 4 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaq.

# Proses ağrısız ötüşməyəcək

## Osman Gündüz: “Elm və Təhsil Nazirliyi çox işlər görməli olacaq”



**“Hazırda ciddi maraq doğuran məsələ Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi institutların fəaliyyətinin necə səmərəli qurulmasıdır”.**

Bunu ”Multimedia” İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz deyib. Ekspert bildirib ki, son zamanlar aparılan müzakirələrdən, Prezidentin Fərmanından və ”Azərbaycan -2026” Strategiyasından belə qənaətə gəlmək olar ki, Nazirlik qısa müddətdə tabeliyindəki elmi institutları fəaliyyət istiqamətləri üzrə universitetlərin tabeliyinə verilməsini təmin edəcək: ”Düşünmək olar ki, artıq Nazirliyin tabeliyində olan İqtisadiyyat İnstitutu UNEC-in tabeliyinə, Riyaziyyat və mexanika İnstitutu BDU tabeliyinə, İnformasiya texnologiyaları və keçmiş Kibernetika İnstututu AzTU tabeliyinə, Neft və Qaz İnstitutu ADNSU və ya Bakı Ali Neft Məktəbinə verilə bilər. Son zamanlar Nazirlik və universitetlər daha çox elmi tədqiqat və innovasiya yönümlü, araşdırma istiqamətində fəaliyyətin təşkilinə üstünlük verirlər. Həmçinin, universitetlərin bir çoxu universitet-sənaye iş birliyinin yenidən qurulması istiqamətində çalışırlar. Nazirlik mövcud elmi institutları universitetlərin tabeliyinə verməklə elmi tədqiqat yönümlü fəaliyyətin gücləndirilməsinə, ali gəhsil müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsinə üstünlük verə bilər. Hazırda universitetlərin böyük əksəriyyətində tədqiqat və innovasiya yönümlü fəaliyyət çox zəif olduğundan düşünürəm ki, yeni yaradılan Elm və Ali təhsil üzrə Dövlət Agentliyi də bu sahədə işləri qaydaya salmaq üçün çox işlər görməli olacaq”.

**O.Gündüz vurğulayıb ki, hazırda bir çox universitet rəhbərləri hansı elmi institutların onlara birləşdiriləcəyini də səbirsizliklə gözləyirlər:** ”Bu proseslər ağrısız ötüşməyəcək. Universitetlərin tabeliyinə verilən institut rəhbərləri ilə bəzi rektorlar arasında müəyyən konfliktlərin də ola biləcəyi gözləniləndir. Eyni zamanda elmi institutların universitetlər üçün əlavə yükə və əlavə problemlərə yol açmasına da yol vermək doğru olmazdı. Təbii ki, yeni yanaşmalara görə, elmi institutlarda aparılacaq optimallaşdırma və ixtisarlar əlavə problemlər də yarada bilər. Düşünürəm ki, institut rəhbərlərinin universitetlərin rektorlarının təqdimatı ilə Nazirilik tərəfindən təyin olunması məntiqli və ağlabatan olardı. İnanıram ki, Elm və Təhsil Nazirliyi yeni formalaşmış situasiyanı, Prezidentin fərmanında və adı çəkilən Strategiyada elm və təhsilin inkişafı üçün nəzərdə tutulanları doğru dəyərləndirəcək. Sektorun sürətli inkişafı üçün daha effektiv və səmərəli mexanizmlər müəyyənləşdirəcək”.

**İsmayıl**

**“Bu müraciəti sizə daha çox əksəriyyətinizdən yaşca və təcrübəcə böyük həmkar olaraq edirəm. Fikirlərimə diqqətlə yanaşmağınız mənim üçün də önəmlidir”.**

Bu sözləri Mətbuat Şurasının sədri Əflatun Amaşov sosial səhifəsində paylaşıb. MŞ rəhbəri vurğulayıb ki, indiyədək Milli Ordu, qoşun növlərinin bir yerdən başqa yerə doğru hərəkəti, yerdəyişməsi ilə bağlı bilgilərin, mövcud xüsusda insanlarda təlaş, həyəcan hissi yarada bilən, cəmiyyətin ümumi mənəvi baxımdan, həm də qanuni tərəfdən isbata yetirmək o qədər də çətin deyil”.

**”Media təmsilçilərini sıravi şəxslərdən fərqləndirən nədir” sualını Ə.Amaşov belə cavablandırıb:** ”Sosial şəbəkələrin informasiya platforması kimi qəbul olunduğu indiki dövrdə jurnalistlərin profilləri



# Jurnalistlərin profilləri həm də informasiya mühitidir

## Əflatun Amaşov: “Tələb budur ki, ümumən hərbi məsələlərlə bağlı bilgimizi, baxışımızı, əldə etdiyimiz məlumatı səpələməyək”

ahəngini pozma perspektivinə malik baxışların yayılmamasına dair çoxsaylı xəbərdarlıqlar edilib. Bunun yolverilməzliyi geniş şəkildə əsaslandırılıb: ”Əlbəttə, jurnalistlərimizdə məsələyə həssas yanaşma var. Ancaq bəzi məqamlar da var ki, onları diqqətə çatdırmaq zərurəti kənara qoyulmamalıdır. Mən də qısaca həmin məqamların üzərində dayanacam. Təbii ki, dövlət sirri, hərbi sirr təşkil edən informasiyaları qorumağa ilk növbədə dövlətin özü mükəlləfdir. Yəni böyük məsuliyyət dövlətin müvafiq orqanlarının üzərindədir. Jurnalist öz fəaliyyəti ilə bu sirri nə dərəcədə yaya bilər? Media təmsilçisi hansı formada ictimai və dövlət maraqlarına ziyan vura bilər? Hesab edirəm ki, bu iki sual bir-birindən ayrı tutulmalıdır. Jurnalistin dövlət sirrini, yaxud hərbi sirri yayma ehtimalı zəif olsa da, ictimai və dövlət maraqlarına bilərəkdən və ya bilməyərəkdən ziyan vurması ehtimalı yetərincə realdır. Baxın, bəzən jurnalistlər yaydıqları, paylaşdıqları hər hansı fikrə görə özlərinə ünvanlanan iradlarla razı olmurlar. Bu zaman məsələnin bilavasitə hüquqi tərəflərinə diqqət yetirirlər. Haqlıdırlar. Hüquqa əsaslanmaqda da, hərəkətlərinin hüquqi baxımdan yolverilməzliyinin isbatını tələb etməkdə də. Bəs onları müəyyən mənada haqsız salan durum nədən ibarətdir? Söhbət o durumlardan gedir ki, jurnalistlər özlərini haqsız bilməsələr də, onların haqsız olduqlarını həm həm informasiya mühitidir, həm də belə demək mümkünsə, müəyyən məsələlərlə əlaqədar rəyin, təəssüratın formalaşdığı məkandır. Yəni biz öz profillərimizdə paylaşdığımız fikirlərlə eyni zamanda cəmiyyətə müraciət etmiş oluruq. Bəzən hətta informasiya dəyəri olmayan, əhvalımızı ifadə edən bir cümləlik sözümüzün belə müxtəlif interpretasiyalar, yozumlar doğurması reallığı mövcuddur. Çünki jurnalist olaraq üzərimizə götürdüyümüz ictimai missiya var. Cəmiyyət üzvləri bizi ən əvvəl o missiyada görür, daha sonra ata, ana, qardaş, bacı, qohum kimi təsəvvürə gətirirlər. Bu missiyanın məziyyətlərini, elə ağırlıqlarını da nəzərə alaraq yaşamağa, elə yazmağa da məhkumuq. Diqqət edək, hər birimizin orduda xidmət edən dostu, tanışı, qohumu var. Hər birimizin Ermənistanla sərhəddə, habelə qoşunların təmas xəttinə yaxın, yəni gərginlik ehtimalı olan ərazilərdə yaşayan tanışları, qohumları, qohumlarımızın qohumları, dostlarımızın dostları da həmçinin. Təhlillərimizə, dünyagörüşümüzə, düşüncə tərzimizə uyğun olaraq, proqnoz və gözləntilərimizə əsasən insanlara yanaşmamız olur. Onlardan informasiya alırıq, müəyyən bilgilər əldə edirik. Bəzən nələrisə onlar bizə deyir. Əlbəttə, bilgili olmağımız vacibdir. Bilgi gizli silahımızdır. Onunla müxtəlif baxışları qarşılaşdırıb obyektiv durumu görürük. Görürük, sanki keşik çəkirik ki, cəmiyyətin maraq və mənafelərinin zədələnməsinə yol verilməsin, bu kimi halların qarşısını alaq”.

*Əflatun Amaşovun sözlərinə görə, tələb budur ki, ümumən hərbi məsələlərlə bağlı bilgimizi, baxışımızı, əldə etdiyimiz məlumatı səpələməyək. Nəzərə alaq və inanaq ki, bu xüsusda ən doğruları bilən, bütün məqamları hesablayan dövlətimiz var:* ”Məhz buna görə də dövlətimizin rəsmi təsdiqini tapmış informasiyalarını yayaq, paylaşaq. Bəli, o informasiyalar üzərində təhlillər, müqayisələr aparmaq haqqımızdır. Axı, dediyim kimi ictimai missiyamız var. Biz öz növbəmizdə də hansı bilginin, məlumatın insanlarımıza xeyirli olduğunu düşünə bilərik, susmalı deyilik. Ancaq gəlin, hərbi məsələlərlə əlaqədar bilgimizi möhkəmləndirmək, narahatlığımız varsa, onu aradan qaldırmaq, informasiya dəyəri olduğunu düşündüyümüz məsələlərə dair əvvəl rəsmi qurumlarımızla, bu halda Müdafiə Nazirliyi ilə dəqiqləşdirmələr aparaq. Əziz həmkarlar, əgər Vətənimiz üçün faydalı iş görmək istəyiriksə, bunun haqqında yazmaq, fikir bölüşmək istədiyimiz durumun, sahənin həssaslığını nəzərə alaraq, ciddi, soyuq yanaşmamızla edək. İnanın ki, bu yanaşmamız bizə insanların, əməkdaşlıq etdiyimiz qurumların nəzərində peşəkar obraz qazandıracaq. Təbii ki, hörmət, ehtiram və etimad da”.

**İsmayıl**

# İlk taxıl gəmisi Somaliyə göndərildi

## Türkiyə ümid edir ki, razılaşma atəşkəsə və davamlı sülhə gətirib çıxaracaq




**Ekspert:** "İnanmıram ki, Rusiya Ukraynaya 30 milyon ton taxılın hamısının ölkədən çıxarılmasına, daşınmasına şərait yaradacaq. Bir müddət sonra problem yaradacaq. Onu əsas gətirəcək ki, guya, taxıldan əldə olunan gəlir silah-sursatın alınmasına sərf olunur"

İsmayıl Qocayev

**Ukrayna taxılını daşıyan ilk gəmi Odessa limanını tərk edib. Bu barədə Ukraynanın İnfrastruktur naziri Aleksandr Kubrakov "Twitter"də bildirib. O deyib ki, bütün tərəfdaş ölkələrin və BMT-nin dəstəyi sayəsində İstanbulda imzalanmış Saziş tam şəkildə həyata keçirilib:**

"Qlobal qida təhlükəsizliyinin təminatçılarından biri olmaq bizim üçün vacibdir". Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, taxıl daşınması ilə bağlı üzərimizə düşəni edəcəyik. O, prosesin fasiləsiz və problemsiz davam etməsini arzu etdiyini bildirib: "Ümid edirik ki, razılaşma atəşkəsə və davamlı sülhə gətirib çıxaracaq". Məlumata görə, ilk taxıl yükü 16 gəmi konvoyla yola düşəcək. Gəmilərin ilk dayanacağı İstanbul olacaq. Gəmilər yola çıxdıqları andan etibarən PUA və peyklər tərəfindən izləniləcək. Boş və taxıl olmayan gəmilərin limanlardan çıxmasına icazə verilməyəcək. İlk taxıl gəmisinin aclıqla üz-üzə qalan Somaliyə göndərildiyi bildirilib. Ukrayna limanlarından gələn ilk gəminin avqustun 3-də Türkiyənin ərazi sularında olacağı gözlənilir.

**"Taxıl anlaşması"nın icra olunması prosesini "Şərq"ə dəyərləndirən "Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları" Mərkəzinin sədri Samir Hümbətov deyib ki, razılaşma BMT və Türkiyənin nüfuz dairəsində həyata keçirilir. Ekspertə görə, anlaşmanın digər tərəfi Rusiyadır:** "Nəzərə almaq lazımdır ki, Rusiya sözünün üstündə duran, yaxud verdiyi sözə uzun müddət sadiq qalan ölkə deyil. Moskva müəyyən zaman sonra, hansısa mərhələdə öz imzasından imtina edə bilər. Bunu Suriyada, Liviyada, Yaxın Şərqdə, o cümlədən Qarabağda görmüşük. Ruslar razılaşmaya tam şəkildə riayət etmirlər. Ukraynanın əlində olan taxıl təqribən 30 milyon tona qədərdir. Bu da hissə-hissə daşınacaq. Dünyada hazırda taxıla olan ehtiyac isə 250 milyon tondur. Xeyli ölkə, o cümlədən Afrika dövlətləri, Latın Amerikası ölkələri Rusiyadan taxıl gözləyirlər. Yəni Ukraynadan dünya bazarına çıxarılan taxıl dünya ehtiyacının çox az hissəsini ödəmək iqtidarındadır. Ancaq inanmıram ki, Rusiya Ukraynaya 30 milyon ton taxılın hamısının ölkədən çıxarılmasına, daşınmasına şərait yaradacaq. Bir müddət sonra problem yaradacaq. Onu əsas gətirəcək ki, guya, taxıldan əldə olunan gəlir silah-sursatın alınmasına sərf olunur və Rusiyaya qarşı istifadə olunur. İqtisadi anlaşmanın qarşıdakı dönəmdə müharibə ilə bağlı hansısa razılaşmaya imkan yaradacağına da ehtimal vermirəm. Bu razılaşma sadəcə taxılın daşınmasını nəzərdə tutur".



**Müdafiə Nazirliyi sosial şəbəkə istifadəçilərinə müraciət ünvanlayıb. Nazirliyin feysbuk səhifəsində yayılan məlumatında qeyd olunub: "Son günlər sosial şəbəkələrdə müxtəlif adlar altında Vətən müharibəsi və təlimlər zamanı Azərbaycan Ordusunun fəaliyyətini, hərbi kolonların, eləcə də döyüş texnikalarının hərəkətini əks etdirən foto və video görüntülər yeni məlumat kimi paylaşılır.**

Bildiririk ki, xidməti fəaliyyət ilə bağlı Azərbaycan Ordusunun şəxsi heyəti və döyüş texnikası təlim mərkəzlərinə, ümumqoşun poliqonlarına mütəmadi olaraq hərəkət edir. Bir daha sosial şəbəkə istifadəçilərini və əhalini belə köhnə görüntüləri yeni video adı altında yaymamağa və ictimaiyyət arasında çaşqınlıq yaratmamağa çağırırıq".

# Müdafiə Nazirliyinin çağırışına həssas yanaşılmalıdır

## İstənilən yanlış addım düşmən üçün mesaj rolunu oynaya bilər ki, bu da əsgər və zabitlərimizin həyatı üçün ciddi təhlükə yaradar

**Müraciətlə bağlı fikirlərini "Şərq"lə bölüşən hərbi məsələlər üzrə ekspert, əməkdar jurnalist İbrahim Rüstəmli bildirib ki, istər sosial şəbəkə istifadəçiləri, istərsə də media nümayəndələri Müdafiə Nazirliyinin çağırışına diqqətlə yanaşmalıdırlar:** "Burda təkcə hərbi əməliyyatlardan deyil, əsgər və zabitlərimizin həyatından söhbət gedir. İstənilən yanlış addım düşmən üçün mesaj rolunu oynaya bilər ki, bu da əsgər və zabitlərimizin həyatı üçün ciddi təhlükə yaradar. İnformasiya məsələsində diqqətli olmalıyıq".

Ekspert İkinci Qarabağ savaşında həyata keçirilən informasiya siyasətinə diqqət çəkib: "Bu savaşda qalib gəlməyimizin səbəblərindən biri də məhz informasiya resurslarının vahid mərkəzdən idarə olunması idi. Ona görə də mən üzümü sosial şəbəkə istifadəçiləri və media nümayəndələrinə tutub demək istəyirəm ki, Müdafiə Nazirliyinin çağırışına həssaslıqla yanaşsınlar. Dövlətimiz son bir neçə dönəmdə istər Cənubi Qafqazda, istərsə də beynəlxalq aləmdə siyasi, iqtisadi və hərbi gücünü göstərib. 44 günlük İkinci Qarabağ savaşında da dövlət olaraq necə böyük gücə sahib olduğunu nümayiş etdirib".

*İ.Rüstəmli bəzi sosial media istifadəçilərinin səhifələrində tez-tez "Müharibə olacaq, antiterror əməliyyatları başlayacaq" kimi fikirlərə rast gəldiyini bildirib. Onun qənaətincə, bu fikirlər əsassızdır və sadəcə olaraq cəmiyyətdə ajiotaj, gərginlik yaratmağa xidmət edir:* "Mən də öz adımdan informasiyaya aidiyyəti olan hər kəsin belə məsələlərdə ciddi və həssas olmasını istəyirəm".

**Günəş Mərd**

# Serbiyanın Kosova ilə müharibə etməsi real deyil

## Kiçik insidentlər yaşanacaq, lakin bu lokal müharibəyə çevrilməyəcək




**Kosovanın əsasən serblər yaşayan Kosovska-Mitrovitsa şəhərində atəş səsləri eşidilib və həyəcan siqnalı işə düşüb. Kosovska-Mitrovitsanın şimal-qərbindəki Zupçe şəhərində yük maşını əsas yolu bağlayıb. Jarinje keçid məntəqəsində serblər arasında yaralıların olduğu da gələn xəbərlər arasındadır.**

Bundan sonra Serbiya ordusu yüksək döyüş hazırlığı vəziyyətinə gətirilib və Kosova ilə sərhəddə barrikadalar qurulub. Kosova xüsusi təyinatlıları isə cavab olaraq sərhədi bağlayıb. Serbiya Prezidenti Aleksandr Vuçiç hadisə ilə bağlı Silahlı Qüvvələrinin Baş Qərargahının binasına gəlib. O, hadisə ilə bağlı açıqlamasında qeyd edib ki, Kosova ordusu gecəyarısı ölkəyə hücum etməyi planlaşdırır: "Düşünürəm ki, biz indiki qədər çətin və ağır vəziyyətdə olmamışıq. Bunu niyə dedim? Priştina rejimi özünü qurban kimi təqdim edərək dünyadakı əhval-ruhiyyədən istifadə etməyə çalışır".

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Vuçiçin hadisə ilə bağlı verdiyi açıqlama diqqət çəkir. Analitik bildirib ki, prezident bu ilin mart ayında Kosovanın Baş naziri Albin Kurtini serblərə hücum etmək qərarına gəlməkdə ittiham etmişdi. Yəni əslində Vuçiç mövcud gərginliyin anonsunu öncədən verməyib:** "Ona görə də düşünmək olar ki, mövcud gərginliyin təşkilatçısı məhz rəsmi Belqraddır. Düzdür, Serbiya Avropa Birliyinə üzvlüklə bağlı müraciət edib. Hətta rəsmi namizəd ölkə statusu alıb və üzvlük müzakirələri aparır. Bu gün Serbiya ilə AB arasında iqtisadi əlaqələr genişdir. Rəsmi Belqrada əsas investisiyalar Avropadan gəlir. Lakin bütün bunlara baxmayaraq, Serbiya dövlət siyasətinin prioriteti hər zaman serb milliətçiliyi və bunun təzahürü olan "Böyük Serbiya"dır. Belqrad hər vəchlə itirdiyi torpaqları qaytarmaq istəyir. İndiki məqamda Serbiyanın Kosova ilə müharibə etməsi real deyil. Birincisi, Serbiyanın Avropa Birliyinə üzvlük məsələsidir. Belqradın Kosovaya ehtimal müharibə elanı Avropa Birliyinin üzvlük prosesini sonlandıra bilər. İkincisi, hazırda Kosovada NATO-nun sülhməramlı qüvvələri mövcuddur və ora hər hansı genişmiqyaslı hücum həmin qüvvələrlə qarşı-qarşıya gəlmək deməkdir. Təsadüfi deyil ki, Kosovanın şimalında stabilliyə hər hansı təhlükə yaranacağı təqdirdə NATO missiyası olaya müdaxilə etməyə hazır olduğunu bildirib. Təkcə NATO-nun Kosovadakı qüvvələri belə Serbiya ordusunu dayandırmağa kifayət edir".




**T.Rzayev vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsinin davam etdiyi bir zamanda Serbiya-Kosova gərginliyinin təzahür etməsi bu prosesin də pərdə arxasında Kremlin olduğu ehtimallarını artırır:** "Real yanaşmaq lazımdır ki, nə Kosova, nə də Serbiya belə həssas bir zamanda gərginliyi artıracaq potensiala malik ölkələrdir. Aydın məsələdir ki, prosesin arxasında yenə də böyük güclər dayanır ki, indiki məqamda bunu edə biləcək ən real güc məhz Rusiyadır. Balkanlarda dondurulmuş münaqişənin yenidən alovlanması, şübhəsiz ki, Rusiyanın maraqlarına uyğundur. Rəsmi Kreml bununla Qərbin diqqətini Ukraynadan yayındırmağa çalışır. Kremlə əslində heç də Serbiya-Kosova savaşı gərək deyil. Kiçik insidentlərlə bir qədər vaxt udmaq, Qərbin diqqətini Ukraynadan bu regiona yönəltmək belə indi Rusiyaya kifayət edir. Qarşıdan payız və qış aylarının gəldiyini və Kremlin indidən qərb ölkələrinə mavi qaz üzərindən təzyiq etdiyini nəzərə alsaq, rəsmi Moskvanın əslində nə etmək istədiyi bəlli olur".

**İsmayıl Qocayev**






# Akademiyanın kitabxanası talan olub

## Nadir kitabları, tarixi sənədləri xaricə daşıyıblar

Məlahət Rzayeva

**Kitaba marağın, diqqətin, istəyin azaldığını, oxu mədəniyyətinin yavaş-yavaş sıfırlanmağa doğru getdiyini bilirdik, amma tariximizə, irsimizə bu qədər səhlənkarlıq, məsuliyyətsizlik, hətta saymazlıq olacağını yəqin əksəriyyət təxmin etmirdi. Bu günlərdə illər əvvəl baş vermiş müdhiş hadisələr gün üzünə çıxdı. Məlum oldu ki, AMEA-nın Mərkəzi Elmi Kitabxanası qəddarcasına talan edilib.**

**Millət vəkili Etibar Əliyev MEK-nın fondu barədə məlumatları paylaşıb.**

Yenixeber.org-da yer alan məlumatda millət vəkili bildirir ki, 2004-cü ildə 4 milyona yaxın kitab fondu olan AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) fondları 2020-ci ilin mart ayına nə üçünsə 1.383.610 ədədədək azalıb. Göstərilən illərdə nəinki elektron kataloq, heç ənənəvi kataloqa da heç bir ədəbiyyat-informasiya qeydiyyatı aparılmayıb. 2014-cü il MEK-in baş kitabında (Depozitlər fondu) 135230 nüsxə ədəbiyyat göstərilsə də MEK-də hazırda 2019-cu ilin hesabatında 1743 nüsxə ədəbiyyat göstərilib. Aradakı fərq 133.487 nüsxə təşkil edir. 2014-cü il sənədində (Baş kitab) 822.819 nüsxə dövri mətbuat qeyd edilsə də 2019-cu ilin hesabatında dövrü mətbuat 347.810 nüsxə göstərilir. Aradakı fərq isə 475.009-dur. 2014-cü ilin MEK-da fondunun həcmi 2.222.824 qeyd olunsa da, 2019-cu il hesabatında 1.383.610 nüsxə ədəbiyyat qeyd olunur. Aradakı fərq 839.214 nüsxə təşkil edir ki, o da yerində aşkarlanmayıb.

Millət vəkilinin sözlərinə görə, akademiyanın kitabxanasından 2014-2016-cı illər ərzində onlarla savadlı mütəxəssis birdən-birə işdən uzaqlaşdırılıb: "Əldə olunan məlumatlara görə, bu illərdə direktorun göstərişi ilə ümumi fonddan 111.263 nüsxə ədəbiyyat hədiyyə edilib, 70 ton kitab və jurnal təkrar emala göndərilib və 70 minə yaxın ədəbiyyat MEK-in yeni binasına daşınmayıb, oxucuların adında olan 5940 nüsxə ədəbiyyat silinib, hazırda 1000-dən artıq kitabın aktı hazır və silinməmiş qalır. 2020-ci il sentyabrın 14-dən oktyabrın 31-nə kimi yoxlama zamanı "C" formatında (həcmi böyük, qədim və nadir nəşrlər) 9.957 nüsxə olmalı fonddan, 824 nüsxə ədəbiyyat yerində aşkarlanmayıb. 598 nüsxə isə inventar kitabında qeydiyyata alınan ədəbiyyat deyildir. "C" formatında 1422 nüsxə ədəbiyyat çatışmazlığı aşkar olunub. 2014-2019-cu illər dövri mətbuat işlənilməyib. Bu illərin informasiya boşluğunun Akademiyada tədqiqat aparan alimlərin elmi yaradıcılığına vurduğu ziyan sual altındadır. 2017-ci ilin hesabatına görə, Nadir nəşrlər fondunda 15.037 nüsxə kitab göstərilsə də, 10.015 nüsxə ədəbiyyat mövcuddur. 1403 nüsxə nadir kitab müxtəlif səbəblərdən, 61 isə səbəbsiz olaraq yerində yoxdur, 107 nüsxə "oxucudadır" adı ilə aktlaşdırılıb. Halbuki, Nadir fonddan oxucuya kitab verilməsi qadağandır. Bu gün elm məbədi saydığımız AMEA kimi bir qurumun kitabxanasının elektron informasiya bazası bu vəziyyətə salınıbsa, hansı uğurlu onlayn xidmətdən və beynəlxalq əlaqələrdən söhbət gedə bilərdi? 2014-cü ildə, dəyəri 238.449 manat olan 42 adda avadanlıq MEK-dən çıxarılıb və MEK-in arxivi isə dağıdılıb. 2014-2016-cı illər ərzində onlarla peşəkar savadlı, bacarıqlı kadrların işdən çıxarıldığı diqqəti cəlb edir ki, qısa zaman ərzində qəfildən bu qədər mütəxəssisin birdən-birə uzaqlaşdırılmasının səbəbləri məlum deyil".

**Araşdırmaçı-jurnalist Araz Qurbanov da feysbuk səhifəsində "AMEA-DAN "HƏYƏCAN" SİQNALI" başlığı ilə status paylaşıb:** 1996-cı ildə Milli Təhlükəsizlik Nazirliyinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində Azərbaycan Milli Elmlər Akademiyasının fondundan nadir kitabların oğurlanması və ölkədən çıxarılması cəhdinin qarşısı alınıb. Müəyyən edilib ki, Ukrayna vətəndaşı, etnik Krım tatarı olan "alim" Bakıya gələrək akademiyanın kitabxanasında "elmi araşdırmalar" aparmağa başlayıb. Kitabxana işçilərinin etibarını qazandıqdan sonra onların məsuliyyətsizliyindən yararlanaraq burada saxlanılan XVIII-XIX əsrlərə aid xeyli sayda unikal (bəzilərinin yalnız Bakı nüsxəsi qalıb) kitabın fondan çıxarılmasına nail olub. Oğru işa edilərək yaşadığı mənzildən həmin nadir kitablar götürülüb. "Alim" bu cinayəti Ukraynadakı erməni iş adamının sifarişi ilə pul müqabilində törətdiyini etiraf etmişdir. Qeyd edim ki, həmin kitablar Şimali və Cənubi Qafqazda, Rusiyanın Cənubunda, Ukraynada yaşayan türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin qədim tarixinə, etnogenezinə, etnoqrafiyasına aid idi. Məsələn, karalar (karaylar, karaimlər) haqqında olan kitabda (XIX əsr) bir fikir indiki kimi yadımdadır: "Karaimlərin dili, folkloru, adətləri ən çox Azərbaycan tatarlarının (türklərinin) dili və mədəniyyətinə yaxındır".

**A.Qurbanov bu hadisəni xatırlamağının əbəs deyil, bir əsasa söykəndiyini vurğulayıb:**

- Dünən də, bu gün də erməni yalanlarının ifşası, Azərbaycan tarixinin obyektiv öyrənilməsi üçün tutarlı faktları, sənədləri, kitabları az qala gündüz çıraqla axtarırıq. Tədqiqatçılar yaxşı bilir: kitabxanalarda, arxivlərdə bir çox əsərin, sənədin adları, inventar nömrəsi olduğu halda, özü artıq yoxdur. Bəzən isə həmin əsərin Bakı nüsxələrinin səsi başqa ölkələrdən çıxır. Görünür, hələ də irsimizə layiqincə sahib çıxa bilmirik. Bu gün AMEA-nın gələcək taleyi ilə bağlı bir çox fikirlər, ehtimallar dolaşmaqdadır. Onların nə dərəcədə həqiqətə uyğun olub-olmaması haqqında fikir yürütməkdən uzağam. Çünki əlimdə tutarlı fakt yoxdur. Amma bu günlərdə müəyyən etdiyim bir arzuolunmaz proses məni çox narahat edir. Bəri başdan deyim ki, yazdıqlarım hər hansı bir "kampaniyanın" tərkib hissəsi deyildir. Belə ki, akademiyanın ləğv olunmasını ehtimal edən bəzi üzdəniraq alimlər sanki dövlətə ziyan vurmaq üçün nadir və qədim sənəd və kitabları, görkəmli elm xadimlərinə aid əlyazmaları, fotoşəkilləri, eksponatları gizli şəkildə AMEA-dan çıxarmağa, mənimsəməyə, mənzillərə daşımağa başlayıblar. Mən əminəm ki, AMEA-nın rəhbərliyi və əlaqədar dövlət strukturları bu vandalizmin qarşısını almaq üçün ciddi tədbirlər görəcəklər.

### Şahbaz Xuduoğlu:

### "Bunu edən şəxslər həbs edilməli, cəzalanmalıdır, ictimaiyyətə bu barədə məlumat verilməlidir"

**"Qanun" Nəşrlər Evinin rəhbəri, naşir Şahbaz Xuduoğlu "Şərq"ə açıqlamasında yayılan məlumatlardan çox məyus olduğunu deyib:**

- Azərbaycanın mənəvi sərvətinin bu şəkildə dağıdılması böyük cinayətdir. Hər hansı tarixi sənədin, bir nüsxənin, əlyazısının, hətta bir şəklin belə aparılması, kiməsə satılması və ya hədiyyə edilməsi cinayət tərkibli əməldir və bununla prokurorluq orqanları məşğul olmalıdır. Bunu etmiş şəxslər həbs edilməli, cəzalanmalıdır, ictimaiyyətə bu barədə məlumat verilməlidir. İctimaiyyət bu cür alçaq cinayətlərin cəzasız qalmadığını görməlidirlər. Bu qədər kitabın məhvi dövləti cinayətdir, xalqa, onun mənəvi irsinə yönəlmiş cinayətdir. AMEA-da struktur dəyişikliyi baş verirsə, bu o demək deyil ki, varislik də aradan qalxır. AMEA-nın əmlakı, kitabxanası saxlanılır və başqa təşkilata həvalə edilir. Amma baş vermiş oğurluq, satqınlıq faktı prokurorluq tərəfindən araşdırılmalı və kimsə cəzadan kənarda qalmamalıdır. Çünki bu sərvət xalqa məxsusdur və o, gələcək nəsillər üçün mütləq qorunmalıdır, yəni, qorunmalı idi. Qorumayıblar, satıb dağıdıblarsa, cavab verməlidirlər.



# “Festivalda türk ruhu möhtəşəm idi, digər məsələlərə göz yummaq olardı"

## Güllü Yoloğlu: “Tədbirin ideya müəllifi gecə-gündüz burada çalışıb, hətta fəhlə yerinə də işləyib”

**İkinci Milli Yaylaq Festivalı Göygöl rayonunun Sarıyal nahiyəsində, Hacıkəndin yaxınlığında yerləşən Xan Yaylağında keçirildi. İyulun 29-dan 31-dək baş tutmuş Festival Cavad xan Tarix və Mədəniyyət Fondunun təşkilatçılığı, Mədəniyyət, Gənclər və İdman, Kənd Təsərrüfatı nazirliklərinin, Turizm Agentliyinin, KOBİA, Gəncə və Göygöl rayon icra hakimiyyətləri rəsmi dəstəyi ilə təşkil edilmişdi.**

Festivala bir neçə ölkədən nümayəndə heyətləri, mədəniyyət və incəsənət xadimləri, turistlər, eləcə də jurnalistlər qatılmışdılar. Xatırladaq ki, Birinci Festival 2019-cu ildə Gədəbəyin Düzyurd-Miskinli yaylağında keçirilib. Türksoylu ölkələrin və xalqların mədəni əlaqələrinə, milli həmrəyliyinə töhfə vermək məqsədi daşıyan budəfəki Milli Yaylaq Festivalı da öz möhtəşəmliyi, rəngarəng çalarları ilə birincidən geri qalmadı. Lakin bir qisim iştirakçı, ələlxüsus jurnalistlər Festivaldan narazı ayrıldılar. Səbəb isə media nümayəndələrinin Festivala gedərkən uzun müddət tıxacda qalması, yağışın yeni çəkilmiş torpaq yolu palçığa çevirməsi, mətbuat işçilərinə qarşı hörmətsizlik, yemək-içməklə təmin olunmamaq və sanitar qovşaqların ödənişli olması göstərildi. Bunlarla yanaşı, geri dönüş ərəfəsində yolların sürüşkənliyi ucbatından ciddi problemlərlə üzləşən jurnalistlər avtobuslarda, qohum-əqrəba evində gecələmək məcburiyyətində qaldılar. İki gündür sosial şəbəkədə geniş müzakirə olunan məsələnin aktuallığını və jurnalistlərin giley-güzarını nəzərə alaraq təşkilatçıların mövqeyini öyrənmək qərarına gəldik. Mövzu ətrafında suallarımızı İkinci Milli Yaylaq Festivalının Təşkilat Komitəsinin üzvü, türkoloq-alim, professor Güllü Yoloğluna yönəltdik. Hörmətli professor yaylaqda olmasına, telefon şəbəkəsindəki problemə rəğmən, suallarımızı cavabsız qoymadı...

**- Güllü xanım, Festivalla bağlı ittihamları necə dəyərləndirirsiniz?**

- Festival keçirilən yerlər dağlıq, təpəlik ərazilərdir. Burada indiyə kimi heç bir infrastruktur, ayrıca yol olmayıb. Çadır qurmaq üçün belə düz yer yox idi. Qısa müddətdə, aramsız yağışları da nəzərə alaraq, əraziyə yol çəkildi. Halbuki, bundan əvvəl minik avtomobilləri bura qalxa bilmirdi. Yəni o dərəcədə çətin yolu var idi. Yaylaq deyilən yerdə asfaltdan söhbət gedə bilməz. Festivalın keçirildiyi ərazidə uzun müddət çox böyük işlər görülüb. Təsəvvür edin, təpənin üzəri düz formada kəsilib və düzənlik hala gətirilib. Festivalda hər məqam millilikdən, türk ruhundan xəbər verirdi. Məsələn, çadırların aypara şəklində qurulması, ortada səkkizguşəli ulduz, həmçinin, sənətkarlıq guşələrinin, yemək yerlərinin yerləşdiyi yerin örtüklərin qədim türk əlifbasında ”TÜRK” sözü ilə qurulması milli ruhumuzu dirçəldən amillər idi. Məncə, təkcə həmin məqamın özü çox möhtəşəm bir mənzərə idi. Qalan digər məsələlərə göz yummaq olardı. Festivalda 40-dan çox xalqın nümayəndəsi iştirak edirdi. Hindistandan tutmuş İtaliyaya, Macarıstana qədər dünyanın bir çox bölgəsindən qonaqlar, iştirakçılar var idi. Tatarlar, ukraynalılar sərgilər keçirtdilər. Bunlara sevinmək lazımdır. Birinci Milli Yaylaq Festivalı 2019-cu ildə Gədəbəydə, Miskinli yaylağında keçirilmişdi. Həmin Festivalı da Cavad xan Tarix və Mədəniyyət Fondunun birinci vitse-prezidenti Müzadil Həsənov təşkil etmişdi. Bütün böyük layihələr konkret bir adamın beynindən çıxır və birbaşa onun təşkilatçılığı sayəsində bu təşəbbüsə digər qurumlar, təşkilatlar da qoşulurlar. Nəticədə ideyanı reallaşdırmaq üçün bir komanda formalaşır. Müzadil müəllim Milli Yaylaq Festivalının keçirilməsinin ideya müəllifidir. O, gecə-gündüz burada çalışıb, hətta fəhlə yerinə də işləyib, işlərin hamısına nəzarət edib. Mən bir neçə ay Müzadil müəllimi burada gəzdirəndə, deyirdi ki, ”bax, burada filan şey olacaq, orada başqa bir şey”. O vaxt buralar boş təpələr idi. Adamın ağlına gəlmirdi ki, nə vaxtsa burada hamının müşahidə etdiyi gözəlliklər olacaq. Mən özüm hazırda Festival keçirilən ərazidəyəm, çadırları yığıb, getməyə hazırlaşırıq.

**- Niyə Festival məkanı dəyişdirildi? Yenidən Gədəbəydə keçirilə bilməzdimi?**

- Müzadil müəllim özü bu yerlərin adamıdır. Hər zaman deyirdi ki, uşaqlıqda bu yerlərdə at çapıb. Sadəcə, 2019-cu ildə məsələ elə gətirdi ki, Birinci Festival Gədəbəydə keçirildi. Görünür, ya icazə ala bilməmişdilər, yaxud başqa problem olmuşdu. Dəqiq bilmədiyim üçün məsələni harasa yozmaq istəmirəm. Ancaq qeyd edim ki, birinci Festivalı da indiki ərazidə keçirmək niyyətində idik. Məcburiyyət qarşısında ilk Festival Gədəbəydə təşkil olundu.

**- Bəs növbəti Festivalın yeri dəyişdirilə bilərmi?**

- Festival hər il bu yaylaqda keçiriləcək. Artıq məkan seçilib, yerlər düzəldilib, müəyyən hazırlıqlar var. Nələr çatır, nələr çatmır, bizə məlumdur. Şübhəsiz, növbəti festivallarda bütün məqamlar nəzərə alınacaq. İlk iş, özü də sıfırdan başlanmış proseslər gələcək üçün ideyalar verir. Yəni nəzərə alırıq ki, gələn il bunu elə edək, onu başqa formada reallaşdıraq və s. Adicə bir iş gördükdə belə çatışmazlıqlar üzə çıxır və gələn dəfə bunu aradan qaldırmaq barədə düşünürsən.

**- Hava durumunu əvvəlcədən nəzərə almaq, Festivalı yağışlı günlərə salmamaq mümkün deyildimi?**

- Əzizim, hava durumunu 3-4 gün, bir həftə qabaqdan öyrənirlər. Belə böyük bir Festivala üç-dörd gün ərzində hazırlaşmırlar ki?! Festivala hazırlıq aylar öncədən başlayır. Hətta Festival günləri ilə bağlı 2-3 ay öncədən məlumat verilir. Çünki xarici ölkələrdən qonaqlar dəvət olunur. Sərhədlərdə pandemiyaya görə müəyyən məhdudiyyətlər, peyvənd pasportu və s. məqamlar var. Bunları həll etmək üçün bir-iki ay zaman lazımdır. Dağıstandan noqayları dəvət etmişdim, qaqauzları çağırmışdım. Bəziləri vaksin pasportu olmadığı üçün Festivala gələ bilmədi. O ki qaldı hava məsələsinə, neçə gündür yaylaqdayam, iki gündən bir hava dəyişir. Gecə soyuqdan donuruq, yağış ara vermir, amma günorta istidən ”ölürük”. Hamımız yanıb, qap-qara olmuşuq. Demək istədiyim odur ki, bura yaylaqdır, hər yer təpə, torpaqdır. Kim asfalt, kombi, kondisioner istəyirsə, otursun evində. Onun yaylaqda nə işi var?!



“Festival yenə eyni yaylaqda keçiriləcək. Şübhəsiz, növbəti dəfə bütün məqamlar nəzərə alınacaq”

**- Jurnalistlərin qarşılanmasında, yeməklə təmin olunmasında niyə problem yaşanıb?**

- Cavad xan Mədəniyyət və Tarix Fondu qonaqların qarşılanması, onların otellərdə yerləşdirilməsi, yeməklə təmin olunması ilə məşğul olmurdu. Festivalın keçirilməsində tərəfdaş olan digər qurumlar, təşkilatlar müəyyən işləri öz üzərinə götürmüşdülər. Ancaq konkret deyə bilmirəm ki, Mədəniyyət Nazirliyi, yaxud Gəncə İcra Hakimiyyəti hansı işləri görürdü? Ona görə də bu məsələyə münasibət bildirmək istəmirəm. Sadəcə bəyan edirəm ki, işlərin hamısı Fonddan asılı deyildi. Hər bir təşkilatın üzərinə ayrıca vəzifələr qoyulmuşdu. Əgər kimsə öz öhdəliyini yaxşı icra etməyibsə, onlara görə Cavad xan Mədəniyyət və Tarix Fondunun rəhbərliyi tənqid olunmamalıdır. Xüsusən, həm ideya müəllifi, həm də layihə rəhbəri olan Müzadil müəllimin bu gözəl təşəbbüsü kölgə altında qalmamalıdır. ”Qurunun oduna, yaş da yanmamalıdır”. Fondun üzərinə düşən əsas iş göz qabağındadır.

**- Jurnalistlər Festival ərazisində ”bazar açılması”ndan, qutabların, dönərlərin bahalığından gileyləndi...**

- Tərəfdaş qurumlar Festivalla bağlı müxtəlif təşəbbüslər həyata keçirirlər. Festivalda nəsə satanlar, xəmir yayıb qutab bişirən qadınlar, dönər hazırlayanlar 2019-cu ildə keçirilən Birinci Festivalda da var idi. Məsələn, şəxsən özüm müalicəvi bitkilər satan xanımın Gədəbəydə video-görüntüsünü çəkmişdim. Bu dəfə də eyni proses oldu. Niyə Birinci Festivalda tənqid olunmayan, problem yaratmayan məqamlar birdən-birə gözə batdı?!

**- Sizcə, nə baş verdi? Niyə Festival ətrafında belə ajiotaj yarandı?**

- Tənqid edənlər ilk növbədə özlərinə baxsınlar. Dövlət, millət, xalq üçün, keçmişimiz və gələcəyimiz üçün hansı işləri görüblər. Digər yandan, giley-güzar edənlər hər zaman narazılıq etməyə nəsə tapırlar. Onların ”işi” odur. Qutabı satanlar sadə vətəndaşlardır, kimsə onları xüsusi olaraq, seçib gətirməyib. Özüm də onlarla söhbətləşmişəm. Hətta ilk qutabı özüm aldım, dedim, əlim yüngüldür. İşlərin necə getdiyini xəbər aldım, dedilər ki, müştəri o qədər çoxdur ki, çatdıra bilmirlər, yorulurlar. Bakıda ”mollarda”, dənizkənarı bulvarda, istirahət mərkəzlərində 5-6 manata kartof qızartmasını elə rahat alırlar, heç ruhları da incimir. Amma həmin pula neçə kiloqram kartof düşür. O qədər pulu işbazlara verəndə narazı qalmırlar, amma burda sadə adamlara 2 manat verəndə giley-güzar edirlər. Niyə bişmiş qarğıdalıya 1 manatı qıymırsız?

**- Sanitar qovşaqların ödənişli olması iddialarına nə deyərdiniz?**

- Pullu söhbəti olmayıb, ola da bilməz. Beş gündür camaat burdadır. Kim ayaqyolundan pullu istifadə edib?!

**- Mədəniyyət Nazirliyinin üzr istəməsi qurumun müəyyən qüsurlara yol verməsi anlamına gəlirmi?**

- Mədəniyyət Nazirliyi ilə bağlı heç nə deyə bilmərəm. Həqiqətən o məsələlərlə maraqlanmırdım. Məni türk ruhlu bir insan kimi Festivalın möhtəşəmliyi, görülən gözəl işlər maraqlandırırdı. Amma görülən işlərə həsəd aparanlar, paxıllıq edənlər çoxdur. Məncə, əsas problem budur.

**- Yollarda tıxacların olması da iştirakçıların gedişini çətinləşdirib. Bunu əvvəlcədən tənzimləmək olardımı?**

- Festivalda iştirak edənlər çox idi. Tıxacları çox vaxt iştirakçılar, maşınla gələnlərin özləri yaradırdılar. İkitərəfli yol var, amma bəzi sürücülər qarşı yola çıxaraq tıxaca səbəb olurdular. Arxadan gələn maşınlar keçə bilmədiyi üçün gediş-gəliş ləngiyirdi. Bunun təşkilatçılara dəxli yoxdu axı.

**İsmayıl Qocayev**

# İnformasiya təhlükəsinin qarşısı inzibati yolla alına bilməz

## Milyonlarla sosial şəbəkə istifadəçisinə nəzarət mümkün deyil



**Sosial şəbəkələrdə müxtəlif adlar altında Vətən müharibəsi və təlimlər zamanı Azərbaycan Ordusunun fəaliyyətini, döyüş texnikalarının hərəkətini əks etdirən foto və video görüntülərin yayılması Müdafiə Nazirliyini də hərəkətə gətirib.**

Görüntülərlə bağlı növbəti dəfə ictimaiyyətə xəbərdarlıq edən Nazirlik vurğulayıb ki, xidməti fəaliyyətlə bağlı Azərbaycan Ordusunun şəxsi heyətinin və döyüş texnikasının təlim mərkəzlərinə, ümumqoşun poliqonlarına mütəmadi olaraq hərəkəti normal haldır. Bəyan edilib ki, sosial şəbəkə istifadəçilərinin hərbi xarakterli fotoları, xüsusən köhnə görüntüləri yeni informasiya adı altında yayması yolverilməzdir. Çünki bu cür xəbərlər ictimaiyyət arasında çaşqınlıq yaradır. Ona görə də vətəndaşlar yalnız öz təsdiqini tapmış və Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində paylaşılan məlumatlara istinad etməlidirlər.

**MN-in xəbərdarlıq mesajını ”Şərq”ə dəyərləndirən AĞ Partiyanın sədri Tural Abbaslı da son günlər sosial platformalarda ”müharibə” xəbərlərinin artdığını deyib. Partiya rəhbəri bildirib ki, vaxtı ilə televiziyada yayımlanmış keçmiş kadrlar, məmurların çıxışları üzərinə indiki tarix qeyd edilərək cəmiyyətə ötürülür:** ”Əlbəttə, bu, yolverilməzdir. Amma düşünmürəm ki, burada xüsusi təxribat cəhdləri var. Böyük ehtimal, sosial şəbəkələrdə fenomen olmaq istəyən şəxslər, qruplar diqqət çəkmək, izləyici toplamaq məqsədi ilə belə addımlar atırlar. Bunun qarşısını inzibati yollarla almaq çətindir. Müxtəlif sosial şəbəkə platformalarında milyonlarla istifadəçi var və hamının fəaliyyətinə nəzarət demək olar ki, mümkünsüzdür. Əslində Qarabağda anti-terror əməliyyatlarının başlanmasının əsas tərəfdarlarından biri mənəm. Amma əməliyyatın nə vaxt başlayacağı, hansı formatda olacağı, neçə gün davam edəcəyi, cəlb olunacaq qoşun növləri kimi hərbi detallar Müdafiə Nazirliyinin daxili məsələsidir. Belə məsələlərin sosial şəbəkədə, ayrı-ayrı saytlarda müzakirə olunmaması üçün müvafiq qurum hərbi məsələlərlə bağlı mütəmadi, dolğun açıqlamalar verməlidir. Çalışmalıdır ki, əhali dövlət qurumlarına, onların məlumatlarına inansın, etimad göstərsin. Başa düşürük, hər informasiyanı cəmiyyətə vaxtından əvvəl ötürmək olmaz. Amma heç olmasa vaxtı yetişəndə bunu etmək zəruridir”.

“Düşünmürəm ki, burada xüsusi təxribat cəhdləri var. Böyük ehtimal, sosial şəbəkələrdə fenomen olmaq istəyən şəxslər, qruplar diqqət çəkmək, izləyici toplamaq məqsədi ilə belə addımlar atırlar”

**T.Abbaslı qeyd edib ki, əksər hallarda qurumlar o qədər susqun qalır ki, vətəndaşlarımız informasiya üçün xarici ölkələrin media resurslarına baş vururlar:** ”Hətta Ermənistanın mətbuat orqanlarına yönəlirlər. Nəticədə dezinformasiya bolluğu yaranır. Nəzərə alaq ki, hərbi məsələlərdə insanların xəbər ehtiyacı rəsmi orqanlar tərəfindən ətraflı və geniş ödənilməlidir. Əks halda feyk xəbərlər o qədər yayılır ki, inzibati cəza metodlarına əl atmaq məcburiyyəti yaranır. Müdafiə Nazirliyi ictimaiyyətlə əlaqələri operativlik, peşəkarlıq və səmimiyyət üzərində qurmalıdır. Bizim cəmiyyətimiz yetkindir, ayıq-sayıqdır. 44 günlük müharibədə Ermənistan xüsusi xidmət orqanlarının bütün cəhdlərinə rəğmən, insanlarımız düşmənin dezinformasiya siyasətinə aldanmadı”.

**İsmayıl Qocayev**

# Maddi vəziyyəti ağır olan valideynlərin rahatçılığı pozulub

**Şəymən Bayramova**



**Məktəblərdə yeni geyim formalarının 2022-2023-cü tədris ilindən tətbiq edilməsi nəzərdə tutulsa da, valideynlərin çoxu yeni dərs ilində övladlarının məktəbə hansı formada gedəcəyi barədə məlumatsızdır.**

Nazirlər Kabinetinin müvafiq qərarı ilə dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri təsdiq edilib. Növbəti tədris ilindən etibarən yeni məktəbli formalarının tətbiqinə başlanılacaq.

Qeyd edək ki, 2022/2023-cü il tədris ilində Azərbaycanda tətbiq olunacaq yeni məktəbli formalarının ilkin qiymətləri məlum olub. Yeni formaların region və bölgələr üzrə rəng, material və modellərə görə fərqlənməsi təklif olunur.

Qeyd edək ki, ikili məktəbli formalarının qiyməti 30 AZN-ə yaxın olacaq. Üçlü və dördlü dəst olacaqsa, qiymət 55-65 manat arasında dəyişəcək.

**Təhsil eksperti Elçin Əfəndi hesab edir ki, məktəbli formalarını tez-tez dəyişdirmək istər şagird, istərsə də valideynlər üçün problem yaradır:**

”Nazirlər Kabineti tərəfindən sonuncu verilmiş qərara əsaslansaq, orada 3 ildən bir formaların dəyişilməsi nəzərdə tutulur. Eyni zamanda qız şagirdlərin şalvar geyinməsi də nəzərdə tutulub. Xarici ölkələrlə müqayisə aparsaq, orada da formalar ya hər il, ya da 3-5 ildən bir dəyişir. Düşünürəm ki, hər il forma dəyişilməkdənsə, 3 ildən bir dəyişilməsi daha məqsədəuyğundur. Artıq bu yöndə yekun qərar verilməlidir. Vahid məktəbli forması müəyyənləşdirilməli, ondan kənara çıxılmamalıdır. Burda valideynlərin ümumi durumu da nəzərə alınmalıdır. Hər il eyni formanı almaq, dəyişmək və yaxud tikdirmək, sözsüz ki, həm şagirdi, həm valideyni çıxılmaz vəziyyətə salır. Maddi sıxıntı yaradır. Hər il geyim dəyişdikcə valideyn məcbur olub yeni forma alır. Qiymətlər də 80 manat, bəzən ondan da yuxarı olur. Amma bu, standart olsa, valideyn qabaqcadan tədbirini görər. Yəni övladının hər il müəyyən qədər boy artımını nəzərə alar. Ümumiyyətlə, düşünürəm ki, şagirdlərə geyim məsələsində bir qədər sərbəstlik verilməlidir. Uşaq məktəbə özünü rahat hiss etdiyi geyimdə gəlməlidir. Məktəbli forması elə olmalıdır ki, şagird özünü rahat hiss etsin. Geyimlərin hazırlanmasında şagirdin özünü rahat hiss etməsi nəzərə alınmalıdır”.

“Məktəbli formalarının 3 ildən bir dəyişdirilməsinə yekun qərar verilməlidir”

*Ekspert bildirib ki, hazırda ölkədə övladına məktəb forması dəstini almağa gücü çatmayan ailələr var:* ”Bu gün ölkədə qazancı az, maddi vəziyyəti aşağı olan yüzlərlə ailə var. Belə ailələr üçün yeni məktəbli forması almaq çətin olacaq: ”Məlumdur ki, vahid məktəbli formalarının qiyməti 70-80 manata qədər qalxır. Bu hal da təbii olaraq valideynləri narahat edir. Məktəblinin geyimi tək forma ilə bitmir axı. Ayaqqabı, çanta və digər ləvazimatlar da var. Fikrimcə, bütün bunları nəzərə alıb dövlət müəssisələrində sərbəst geyimə üstünlük verilməsi daha məqsədəuyğundur”.

# Ərdoğanın yenidən prezident seçilmək şansı yüksəkdir

## Cümşüd Nuriyev: “Əkrəm İmamoğlu ilə Mansur Yavaşın ona ciddi rəqib olacağını zənn etmirəm”



**Türkiyədə növbəti prezident və parlament seçkilərinə bir ildən az zaman qalıb. Qardaş ölkədə parlament seçkiləri prezident seçkiləri ilə birlikdə beş ildən bir keçirilir. Növbəti seçkilər ən geci 18 iyun 2023-cü ildə keçiriləcək. Seçki yaxınlaşdıqca siyasi fəallıq da artmaqdadır.**

Seçkilərdə 20-dən çox partiya iştirak hüququna malik olsa da, əsas rəqabətin hakim Ədalət və İnkişaf Partiyasının və Milliyyətçi Hərəkat Partiyasının təşkil etdiyi ”Cümhur İttifaqı” ilə bir neçə müxalifət təşkilatının qurduğu ”Millət İttifaqı” arasında gedəcəyi bəllidir. Xatırladaq ki, 2018-ci ildə keçirilən növbədənkənar prezident seçkilərində Ərdoğan seçicilərin 52 faizdən çoxunun dəstəyi ilə birinci turda qalib gəlmişdi. Parlament seçkilərinin nəticəsi də təxminən eyni olmuşdu, AKP-MHP cütlüyü 53 faizlə qalib olmuşdu. Hazırda ”Cümhur İttifaqı”nın rəqibi ”altılı masa” adlandırılan 6 partiyanın təşkil etdiyi müxalif blokdur. Altı partiya içində əsas siyasi güclər - ana müxalifət sayılan Cümhuriyyət Xalq Partiyası və İyi Partiyadır. Digər siyasi təşkilatların blokda təmsil olunması isə dəstək xarakterlidir. Ekspertlərə görə, ”altılı masa”nın Ərdoğan qarşısında ən güclü siyasi rəqibləri Ankara bələdiyyə başçısı Mansur Yavaş və İstanbul bələdiyyə sədri Əkrəm İmamoğludur. Siyasi kulislərdə bu iki şəxsin adı hallanır.

**Türkiyədə aşıq-aşkar hiss olunan seçki aktivliyini ”Şərq”ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev deyib ki, hazırda qardaş ölkədə iqtidar cəbhəsi ilə müxalifət arasında ciddi çarpışma gedir.** Professorun sözlərinə görə, AKP və MHP-nin yaratdığı ”Cümhur İttifaqı” rəqib bloka qarşı daha şanslı və güclüdür. Ancaq ekspert iki blok arasında gərgin siyasi yarışın gedəcəyini istisna etmir: ”Müxalifətin əlindəki ən güclü rıçaqlar iqtidarın zəif nöqtələridir. Elə bir iqtidar yoxdur ki, onun həssas yerləri olmasın. Türkiyənin hazırda ən zəif damarı iqtisadiyyatın pisləşməsi və kəskin bahalaşmadır. Ankaranın regional və qlobal siyasəti, dünyada söz sahibinə çevrilməsi istiqamətində atdığı addımlardan sonra Türkiyəyə qarşı təzyiqlər güclənib, basqılar artıb. Təbii olaraq, xaricdən Ərdoğan iqtidarına edilən təzyiqlər daxildəki müxalif güclərin də işinə yarayır. Türkiyədə iki böyük ”5-ci kolon” var. Birincisi, PKK, ikincisi isə HDP ilə əməkdaşlıq edən, Türkiyəni hər fürsətdə vurmağa çalışan bəzi müxalifət partiyalarıdır. Hər şeyə rəğmən, ”altılı masa”nın işi çox çətindir. Təsəvvür edin, hakim partiyanın qarşısına çıxmış altı siyasi təşkilatın rəhbərləri arasında vahid namizəd ola biləcək şəxs tapılmır. Sadəcə, İyi Partiyanın sədri Meral Akşenerin adı ara-sıra çəkilir. Müxalifət düşərgəsi vahid namizəd kimi Mansur Yavaşı, Əkrəm İmamoğlunu irəli sürməyi götür-qoy edirlər. Meral Akşener əsas oyunçu deyil, ondan yararlanmağa çalışırlar. Bu qadının liderlik ehtimalı sıfıra bərabərdir. Əsas fiqurlar Əkrəm İmamoğlu ilə Mansur Yavaşdır. Lakin onların Ərdoğan üçün ciddi rəqib olacağını zənn etmirəm. Çünki bu iki şəxs bələdiyyə sədri kimi belə özlərini doğrultmadılar. Hər ikisi barədə ciddi narazılıq hökm sürür. Seçki öncəsi Ərdoğanın tərəfdarları ilə müxalifət arasında qarşıdurma olacağı ehtimal edilsə də, genişmiqyaslı gərginlik gözlənilmir. Ərdoğanın şansı yüksəkdir”.

**İsmayıl Qocayev**



**Azərbaycanda ikinci dəfə Milli Yaylaq Festivalı təşkil olunub. 22 xarici ölkədən 300-ə yaxın qonağın iştirak ediyi Festivalda diqqət çəkən məqamlardan biri də Göytürk əlifbası ilə”Türk” sözünün yazılması olub. Yazı insanlar tərəfindən olduqca maraqla qarşılanıb, sosial şəbəkələrdə ən çox paylaşılan görüntülülər sırasında yer alıb.**

# Milli Yaylaq Festivalında türk sözü tarix oldu

## Faiq Ələkbərli: ”Hesab edirəm ki, belə görüntülər bütün türk dövlətlərini bir az da yaxınlaşdırır”

**Türkoloq-alim Faiq Ələkbərli məsələ ilə bağlı ”Şərq”ə danışarkən bildirib ki, bu, ilk növbədə insanlarımızın öz türk kimliyinə dönüşünə rəvac verir:** ”İstər hazırda ölkəmizdə yaşayan, istərsə də digər türk dövlətlərindən Festivala gələnlər türk sözünün əzəmətini bir daha duymuş oldular. Özəlliklə də sözün əski Göytürk əlifbası ilə yazılması festivala xüsusi bir rəng qatdı”.

*Türkoloq-alimin sözlərinə görə, insanlara öz türk kimliyini xatırlatmaq üçün belə dəyərləndirmələr etmək vacibdir:* ”Mən, eləcə də bir çox insan öz sosial şəbəkə ünvanlarında həmin yazını əks etdirən fotonu paylaşıb türk olmağı ilə qürur hissi duydu. Hesab edirəm ki, belə görüntülər bütün türk dövlətlərini bir az da yaxınlaşdırır.

Bu görüntü indiki anda bizim üçün gözəl, xoş təəssürat, türk dövlətlərinin gələcəyi üçün isə böyük ümiddir”.

**Günəş Mərd**

# Şəhid qardaşı təklif verdi

## Qazilərlə iş üçün könüllü qruplar yaradılsın




**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) həbs etdiyi Vətən müharibəsi iştirakçılarına qarşı dələduzluq edən Elvin Əliyevin Qubanın icra başçısı Ziyəddin Əliyevin qardaşı oğlu olduğu müəyyən olunub.**

Məlumata görə, bu onun ilk dələduzluğu deyil. Xatırladaq ki, vəzifəli şəxs adından Vətən müharibəsi iştirakçılarına qarşı dələduzluq əməllərinin törədilməsi və onların maddi vəsaitlərinin ələ keçirilməsi ilə bağlı çoxsaylı faktlara dair daxil olmuş məlumatlar əsasında 25 iyul 2022-ci il tarixdə Dövlət Təhlükəsizliyi Xidmətində cinayət işi başlanılıb. Təqsirləndirilən şəxs qismində Elvin Əliyev məsuliyyətə cəlb edilib.

O, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2 (təkrar dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə ittiham olunub, məhkəmə qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

İctimai-siyasi fəal, şəhid qardaşı Elyar İslamoğlu bu haqda ”Şərq”ə danışarkən bildirib ki, 44 günlük İkinci Qarabağ müharibəsindən sonra bir çox şəhid ailəsi və qaziyə qarşı dələduzluq hallarının şahidi olub: ”Son zamanlar belə hallar daha da artıb. Bir neçə şəhid ailəsinə övladının sağ, əsirlikdə olduğu deyilib. Onlardan külli miqdarda pul alıblar. Bir çox fırıldaqçı, vicdanın nə olduğunu bilməyən adamlar yaranmış şəraitdən istifadə edib belə ailələrin həssas dönəmində dövrəyə girib öz işlərini görürlər. Hətta bu fırıldaqçılardan ikisi özlərini qrimlə şəhidlərimizdən birinə oxşadıb ananı inandırıb ki, oğlun sağdı. Son dönəmlər isə qazilərə qarşı dələduzluq hallarının sayı artıb. Onlara ordenin, veteranlığın verilməsi məsələlərində bəzilərinə isə ev növbəsində qabağa salınmaqları ilə bağlı boş vədlər verib aldadırlar. Bunun başlıca səbəbi müharibədən sonra şəhid ailələri və qazilərlə işin düzgün aparılmamasıdır. Düzdür, müharibədən sonra bütün icra hakimiyyətlərində şəhid ailələri, qazilərlə iş şöbəsi yaradılıb. Amma görünür, bunun effektivliyi o qədər də ürəkaçan olmayıb”.

***"Hələ də bəzi qazilər hansı sənədi hara təqdim edəcəyini bilmirlər. Bir çox ailədə oğul şəhid olub, yaşlı ata və ana qalıb. Həmin adamlar sənəd məsələlərinə yaxşı bələd deyillər"***

*E.İslamoğlu diqqətə çatdırıb ki, qazilər fırıldaqçıların ”tor”una düşməmək üçün mütəmadi olaraq məlumatlandırılmalıdır:* ”Onlara hüquqları başa salınsın. Hətta təklif etmişəm ki, ”İslam Həmrəylik Oyunları”nda , ”Eurovision” da yaradıldığı kimi qazilərlə iş üçün də könüllü qruplar yaradılsın. Onlar hər bir rayonda qazilərə, şəhid ailələrinə yaxınlaşıb onların mövcud problemləri ilə maraqlansınlar. Hələ də bəzi qazilər hansı sənədi hara təqdim edəcəyini bilmirlər. Bir çox ailədə oğul şəhid olub, yaşlı ata və ana qalıb. Həmin adamlar sənəd məsələlərinə yaxşı bələd deyillər. Hazırda şəhid ailələrinin, qazilərin aldadılmasında başlıca səbəb budur”.

**İctimai-siyasi fəal Vətən müharibəsi iştirakçılarına qarşı dələduzluq edən Elvin Əliyevin işinə diqqət çəkib:** ”Vəzifəli şəxslərin yaxın qohumlarının dələduzluq əməllərinə gəlincə isə həmin şəxslərin özləri adətən büdcə talamış olurlar. Belə adamların da qohumları çox vaxt elə özlərinə bənzəyir. Adətən deyirlər ”yaxşı oğul” dayısına oxşayar. Bu dəfə görünür, ”yaxşı oğul” əmisinə oxşayıb”.

**Günəş Mərd**



# Təxribatların bir sonu olacaq

## Qarabağda hər qanunsuz silahlı Azərbaycan Ordusunun hədəfidir

**44 günlük Vətən müharibəsinin Azərbaycanın Zəfəri ilə yekunlaşmasına baxmayaraq, ermənilər hələ də təxribatların cəhd göstərirlər. İyulun 30-u günorta saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan intensiv atəşə tutub.**

Bölmələrimiz adekvat cavab tədbirləri görüb.

Rəsmi İrəvan bir yandan Azərbaycanla qarşılıqlı danışıqlar aparır. Digər tərəfdən də Ermənistandakı revanşist qüvvələr ordunun içindəki ”əl”ləri ilə təxribatlar törədirlər.

Hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə bildirib ki, Ermənistan birgə bəyanata əsasən üzərinə düşən öhdəlikləri yerinə yetirmir. Ona görə proses Azərbaycanın da öz üzərinə düşən öhdəliklərdən imzasını geri çəkməsi ilə nəticələnə bilər: ”Bu isə vəziyyətin 9 noyabr 2020-ci il tarixinə qayıtması deməkdir. Nəticələrinin Ermənistan üçün nə dərəcədə ağrı-acılı olacağı şübhə doğurmur. İstənilən halda Qarabağda mövcud olan hər bir silahlı şəxs Azərbaycan Ordusu üçün hədəfdir. Onların təmizlənməsi mütləqdir. Prosesin qısa müddətdə həyata keçiriləcəyini ehtimal edirəm”.

**Aygün Tahir**

# NATO qoşunlarını da münaqişəyə qatmaq istəyirlər

## Serbiya ilə Kosova arasındakı kiçik mübahisə qlobal konfliktə çevrilir

**Kosova hökumətinin bu ölkədəki serblərə qarşı tətbiq etdiyi yeni qaydalar gərginliyin yenidən artmasına səbəb olub. Yeni qaydalara əsasən, avqustun 1-dən etibarən Serbiyaya məxsus şəxsiyyət vəsiqəsi və pasportları olanların Kosovoya girişi qadağan olunurdu. Bildirilirdi ki, ölkəyə daxil olan serblərə 90 gün qüvvədə olan icazə sənədi veriləcək.**

Lakin ölkədə yaşayan serblər qaydalara etiraz əlaməti olaraq, şimalda Serbiya ilə sərhədə gedən yolu avtomobillərlə bağlayıblar, barrikadalar qurublar. Kosova polisi isə ”Brnyak” və ”Yarinye” sərhəd-keçid məntəqələrini bağlayıb.

Qeyd edək ki, yerli KİV bəzi yerlərdə atəş səslərinin eşidildiyini, əsasən polis qüvvələrinin hədəf alındığını, lakin xəsarət alan olmadığını yazıb.

Baş verənlərin fonunda Kosova hakimiyyəti ölkənin şimalında serb əhalisi ilə münaqişəyə səbəb olan icazə sənədlərinə qadağa qoyulması prosedurunu sentyabrın 1-dək təxirə salıb.

Kosova hökumətinin bəyanatında deyilir: ”Kosova hökuməti bu gün ölkənin şimalında yolların bağlanmasını və orada silahlı şəxslərin polisə atəş açmasını qətiyyətlə pisləyir. Söhbət Kosovanın sabitliyini pozmaq, vətəndaşların və ölkəmizin sülh və təhlükəsizliyinə təhlükə yaratmaq meyillərindən gedir”.

Priştina iğtişaşların təşkilinə görə rəsmi Belqradı ittiham olunur.

Qeyd olunur ki, bu hadisələrə görə qismən tanınan ölkənin hakimiyyət orqanları amerikalı və avropalı tərəfdaşlarla əlaqə saxlayaraq, görüşüblər.



Məlumatda bildirilib: ”Kosova hökuməti iki qərarın icrasını 2022-ci il sentyabrın 1-dək bütün barrikadaların aradan qaldırılacağı və Kosovonun şimalında tam azadlığın bərqərar olacağı tarixədək təxirə salmağa sadiqdir. Beynəlxalq tərəfdaşlara, xüsusilə ABŞ səfirinə töhfələrinə görə minnətdarıq”.

**Siyasi analitik Turab Rzayev ”Şərq”ə açıqlamasında bildirib ki, vaxtilə Kosova Serbiyanın daxilində alban anklavı şəklində idi:** ”Həmin o Mitroviça bölgəsi də Kosovanın tərkibində daha çox serblərin yaşadığı ərazidir. Kosovanın şimalında serb qanunları işlənir. İnzibati olaraq, rəsmi Priştina sayılsa da, özlərini Serbiya vətəndaşı hesab edirlər. Kosova qanunlarına tabe olmurlar. Bununla bağlı bir neçə dəfə fərqli etirazlar yaranıb. Daha bir mübahisə isə dövlət sənədləri ilə əlaqəlidir. Serbiya Kosovanı rəsmi şəkildə tanımır. Bir ara Kosova nömrələrini ölkə gömrüyündən keçərkən sökürdülər. Həmçinin ölkənin pasportlarını tanımırdılar. Qarşılıq olaraq da, kosovalılar öz ərazilərindəki serblərin sənədlərini qəbul etmirlər. Eyni formada Kosova ərazisində və Mitroviça bölgəsində yaşayan serbiyalılardan Priştinaya məxsus sənədlər tələb edirlər. Gərginlik son günlərdə pik həddə çatdı. Ən son Serbiya prezidenti müəyyən təzyiq yaratmaq üçün həmin əraziyə ordu yığdı. Bundan başqa, xalqa səslənəcəyini və müharibəyə hazır olduğunu bildirdi. Beləliklə, Kosovanın şimalındakı həmin serb əhali də avtomatlarla şəkillərini çəkərək, rəsmi Priştinaya tabe olmayacaqlarını söylədilər. Daha sonra adıçəkilən ərazilərə, kəndlərə Kosova ordusu daxil oldu. Bununla da müəyyən iğtişaşlar baş qaldırdı. Qarşılığında Serbiya məsələyə münasibət bildirəcəyini açıqladı. Həmçinin rəsmi Belqradın təhdidinə cavab olaraq, Kosovadakı NATO ordusu məlumat yaydı. Serbiya silahlı qüvvələri Priştinaya hər hansı təzyiq göstərərsə, o zaman hərbi alyans münaqişəyə müdaxilə edəcək.

Beləliklə, şimaldakı serb kəndlərinin Serbiya vətəndaşlığı daşıması ilə bağlı başlanan kiçik mübahisə qlobal bir konfliktə çevrilmək astanasındadır.

Kosova yerli serbləri məcbur edir ki, daşıdıqları pasportdan imtina edib, Kosova vətəndaşlığını götürsünlər. Belə olduğu halda, Serbiya rəsmi Priştinanın tələblərinə göz yummalıdır. Yaxud da Kosovaya qarşı hərbi əməliyyatlara başlayıb, yerli serbləri dəstəkləməlidir. Bu da öz növbəsində NATO qoşunlarının da münaqişəyə qatılmasına gətirib çıxarır. Sözügedən məsələni müəyyən qədər Ukrayna müharibəsinin başlatdığı dalğanın davamı kimi də görmək olar.

Çünki artıq Şərqi Avropada Ukrayna izləri ciddi şəkildə bitirilmək üzrədir. Serbiya balkanlarda Rusiyanın əsas müttəfiqidir. Həmçinin ona ən yaxın ölkədir. Düşünürəm ki, Serbiyaya bu təzyiq ilə Rusiya ola bilsin, başqa bir ərazidə münaqişə ilə çıxış etmək niyyətindədir. Bu toqquşma ilə ya Rusiya məcbur olub, Serbiyanın təklənməsi ilə razılaşacaq, ya da serblər özü növbəti münaqişədə zərbə alacaq. Nəticədə rəsmi Moskvanın nüfuzu daha da sarsılacaq”.

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması;**



# İslahatlar sürətlənir

## Peşə təhsilini bitirənlərin işlə təmin olunma faizi çox yüksəkdir

**Müasir dövrdə əmək bazarının inkişaf xüsusiyyətlərinə uyğun olaraq onun peşə biliklərinə malik şəxslərlə təmin edilməsi kifayət qədər aktuallıq kəsb edir. Ümumilikdə dövlət və iqtisadiyyatın müəyyən sahələri üçün müvafiq ali təhsilli mütəxəssislərlə yanaşı, müxtəlif peşə sahələri üzrə zəruri bilik və vərdişlərə malik mütəxəssislərin hazırlanması da vacibdir. Müxtəlif sahələrdə çalışmaq üçün mütləq şəkildə ali təhsilə malik olmaq zəruri deyil.**

Bu mənada müəyyən peşə ixtisası üzrə biliklərin əldə edilməsi ilə də iqtisadi və sosial həyatın müəyyən sferalarında əmək fəaliyyəti ilə məşğul olmaq mümkündür. Peşə təhsilinin əhəmiyyəti həm də onunla bağlıdır ki, ümumilikdə əmək bazarının tələbatına uyğun olaraq orta məktəbi bitirən şəxslərin əmək bazarına ixtisassız girişinin qarşısı alınır. Eyni zamanda onların ilkin bilik və bacarıqlar ilə təmin olunması səbəbilə əmək fəaliyyətinə daha hazırlıqlı başlaması səbəbindən peşə təhsili mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan yaxşı olardı ki, orta məktəblərdə şagirdlərə peşə təhsilinin istiqamətləri haqqında geniş məlumat verilsin, ilkin bilik və bacarıqlar aşılansın. Cəmiyyətimizdə elə bir fikir formalaşıb ki, orta məktəbi bitirən hər kəs ali təhsil almalıdır. Bəzən müəyyən peşə sahəsinə marağı və istəyi olan gənc valideynlərinin təkidi ilə ali məktəblərə imtahan vermək məcburiyyətində qalır. Biz bu stereotipləri qırmalıyıq, həmin gənclərə dəstək olmaq üçün müəyyən mexanizm hazırlanmalıdır. Məlumat üçün bildirək ki, dünəndən etibarən peşə təhsil müəssisələrinə 2022/2023-cü tədris ili üzrə tələbə qəbuluna başlanılıb. Qəbul prosesi ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər üçün açıqdır. 2022/2023-cü tədris ili üzrə tələbə qəbulu 66 peşə təhsil müəssisəsində 127 ixtisas olmaqla 23 min 340 yer üzrə aparılacaq. Son müraciət tarixi 12 avqustdur. Qeydiyyatdan keçmiş müraciətçilərin elektron ərizələrindəki məlumatların doğruluğu yoxlanıldıqdan sonra iştirakçının ixtisaslar üzrə seçimi sistem tərəfindən təsdiqlənir. Qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında həyata keçirilir. Tələbə qəbulu prosesində iştirak edən hər bir şəxsə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılır.

Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor vəzifəsini icra edən Ceyhun Kərəmov deyib ki, Cəlilabad və Sumqayıtda yeni peşə təhsili müəssisələri yaradılacaq: ”Hazırda peşə təhsili alan tələbələrin 45 faizi Bakıda yerləşən peşə təhsili müəssisələrinin payına düşür. Bu il dövlət sifarişi üzrə ümumi qəbul planı ötən illə müqayisədə 10 faiz artırılıb. Eyni zamanda, ödənişli ixtisaslar üzrə də qəbul planı artırılıb”. O bildirib ki, Sumqayıtda sənaye və İT yönündə peşə təhsili müəssisəsinin yaradılması istiqamətində də iş aparılır: ”Növbəti il Lənkəranda yeni peşə təhsili müəssisəsinin açılması planlaşdırılır. Ümumilikdə, 2026-cı ilə qədər 8 yeni peşə təhsili müəssisəsinin yaradılması hədəf kimi müəyyənləşdirilib”.

Ceyhun Kərəmov bildirib ki, peşə təhsili üzrə 5 yeni ixtisas əlavə edilib. Bunlardan 2-si yüksək-texniki, 3-ü isə texniki peşə ixtisasıdır: ”Peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Bu da təhsilin məzmununun və keyfiyyətinin artırılmasına xidmət edəcək. 2026-cı ilin sonuna qədər peşə təhsilinə cəlb olunanların sayı 11 minə qədər artacaq. Bu, 50 faiz artım deməkdir. Hər il 15 yeni ixtisasın peşə təhsilinə qəbula salınması nəzərdə tutulur. İxtisasartırma və təlimlərlə əmək bazarının tələbatının ödənilməsi əsas prioritetdir”.

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə deyib ki, keçmiş sovetlər dövrünə nəzər saldıqda görürük ki, texniki peşə təhsili ölkə iqtisadiyyatının peşə-ixtisas kadrlarına olan ehtiyacının ödənilməsində mühüm rol oynayıb. Ekspertin fikrincə, SSRİ dağıldıqdan sonra təhsilin başqa sahələrində olduğu kimi, peşə təhsilində də ciddi problemlər yaranıb:** ”O dövrdə texniki peşə təhsili müəssisələri baxımsızlıq ucbatından bərbad vəziyyətə düşmüşdü. 1988-1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb iqtisadi-siyasi şərait bütün sahələrdə olduğu kimi, texniki peşə təhsilinin inkişafına da öz mənfi təsirini göstərib. Bu dövrdə hökm sürən ictimai və sosial-iqtisadi sabitsizlik, istehsal həcminin kəskin azalması, təhsil təşkilatları ilə müəssisələr arasında ənənəvi əlaqələrin qırılması texniki peşə təhsili sistemini iflic vəziyyətinə salıb. Tamamilə dağılmaq təhlükəsi ilə üz-üzə qoyub. Uzun müddət bir çox ixtisaslar üzrə lazım olan işçi qüvvəsi ya xarici ölkələrdən dəvət olundu, ya da bunu qeyri ixtisaslı kadrlar həyata keçirməyə başladı. Geridə qoyduğumuz 30 ildə texniki peşə təhsili müəssisələrinin binaları yararsız hala düşmüşdü, mühəndis pedaqoji heyətin böyük bir qismi işdən uzaqlaşmışdı.Yataqxanalar qaçqın və məcburi köçkün ailələri tərəfindən zəbt olunmuşdu. Buna baxmayaraq, 2016-cı ildən etibarən texniki peşə təhsilinin inkişafı sahəsində yeni mütərəqqi meyillər yaranmağa başladı. Təcrübə göstərir ki, texniki peşə təhsili bütövlükdə təhsil sisteminin aparıcı istiqaməti olmaqla, cəmiyyətin sosial mənəvi və iqtisadi inkişafında fərdlərin iştirakını təmin edir. Onların ətraf mühitə təsir etmək imkanlarını artırır, insanları yeni biliklərə yiyələnməyə istiqamətləndirir. Peşəkar fəaliyyətdə davamlı inkişafa nail olmaqda real köməklik göstərir”.

*"Təcrübə göstərir ki, texniki peşə təhsili bütövlükdə təhsil sisteminin aparıcı istiqaməti olmaqla, cəmiyyətin sosial mənəvi və iqtisadi inkişafında fərdlərin iştirakını təmin edir. Onların ətraf mühitə təsir etmək imkanlarını artırır, insanları yeni biliklərə yiyələnməyə istiqamətləndirir"*

**K.Əsədova görə, 2016-cı ildə Prezidentin ”Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması haqqında fərmanından sonra peşə təhsili islahatının gedişi daha da sürətləndi:** ”Yeni peşələr üzrə kadr hazırlığına diqqət artırıldı. Bu gün orta məktəbləri bitirmiş şəxslər kütləvi şəkildə ali məktəblərə qəbul olmaq üçün sənəd təqdim edirlər. Halbuki, 54 ali təhsil müəssisəmizdə təhsil alan 164 min tələbənin yalnız 42 faizi təhsilini başa vurduqdan sonra əmək bazarında ixtisası üzrə işlə təmin olunur. Amma peşə təhsilini bitirənlərin işlə təmin olunma faizi isə çox yüksəkdir. Müasir Azərbaycan gənclərinin peşə təhsili müəssisələrini seçməməsinin bir səbəbi də onların təhsil aldıqları müddətdə hərbi xidmətdən azad edilməməsi idi. Amma yeni ”Peşə təhsili haqqında” qanunda qeyd olunur ki, bu pillədə təhsil alanlara da möhlət hüququ veriləcək. Bu, gənclərin kütləvi şəkildə peşə təhsilinə yönəlməsinə gətirib çıxaracaq. Artıq bir neçə ildir ki, ilk peşə-ixtisas təhsili müəssisələrinə ərizə qəbulu ”ASAN xidmət” mərkəzlərinin və müvafiq təhsil müəssisələrinin sənəd qəbulu komissiyalarında ödənişsiz formada həyata keçirilir. Bütün bu addımlar peşə-ixtisas təhsili müəssisələrinə marağı və müraciəti ciddi şəkildə artıracaq”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Vəziyyət o qədər də acınacaqlı deyil"

## Şahlar Göytürk: ”Son illər KİV-lərin dili ilə bağlı ciddi nailiyyətlər əldə olunub”

**”Ana dili” günüdür. Hər il olduğu kimi bu dəfə də dillə bağlı müzakirələr gündəmə gəlib. Mütəxəssislərin fikrincə, dilimiz çox dəyişib və hazırda da dəyişməyə doğru gedir. Milli-mənəvi dəyərlərimiz sırasında xüsusi yeri olan Azərbaycan dili mövcud olduğu tarixi dövrlər ərzində həm zəngin inkişaf yolu keçmiş, həm də müəyyən vaxtlarda ciddi təsir və təzyiqlərə məruz qalıb. ”Dil haqqında” qanun var, amma onun işləmə mexanizmi yoxdur. Kim necə istəyir o formada TV-də, dövlət idarələrində, təhsil ocaqlarında, küçədə danışır. Yuxarıda qeyd etdiyim ki, ədəbi dildə danışanları isə artıq lağa qoyurlar.**

Biz ötən əsrin əvvəllərində ”Anamın kitabı” tragikomediyasında məhz bu problemin əks olunduğunu görürük. Bu əsərdə rus dilinə meyilli Rüstəm bəy, fars dilinə meyilli Mirzə Məhəmmədəli, türk dilinə meyilli Səməd Vahid obrazlarının timsalında ədib XX əsrin əvvəllərində bəzi ziyalıların ana dilinə biganə münasibətini ürək yanğısı ilə təsvir etmişdi. Bu gün də dilimiz eyni taleyi yaşayır. Dəyişən sadəcə yüzillik olub.

**Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi Analitik Təhlil və Proqramlaşdırma şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şahlar Göytürk isə ”Şərq”ə açıqlamasında deyib ki, yad təsirlərə meyl olsa da, dilimizin mövcud durumu o qədər də bədbin deyil:**

- İl yarım bundan əvvəl Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi yaradılıb. Monitorinq Mərkəzi Azərbaycan Respublikasında dövlət dilinin tətbiqinə nəzarət edən, kütləvi informasiya vasitələrində, internet resurslarında, reklam daşıyıcılarında ədəbi dil normalarının qorunmasını təmin edən hüquqi şəxsdir.

Bu Mərkəz vasitəsi ilə daimi olaraq monitorinqlər aparılır və nəticələri də ictimaiyyətə açıqlanır. Dilçi alimlər, ziyalılar, media nümayəndələri ilə birlikdə mübahisəli məsələlər müzakirə olunur.

Kütləvi İnformasiya Vasitələrinin, reklam lövhələrinin dilindəki səhvlərlə bağlı ciddi addımlar atılır. Ötən bu müddət ərzində keçirilən monitorinqlərin nəticəsi ilə bağlı 4 kitab ərsəyə gətirilib, aidiyyəti qurumlar məlumatlandırılıb.

**- Monitorinqlər dil sahəsindəki mövcud problemlərin aradan qaldırılması üçün yetərli olacaq?**

- Sözsüz ki, dilimiz var olduqca problemlər, çatışmazlıqlar da olacaq. Lakin köklü problemlərin əksəriyyəti öz həllini tapacaq. Son illər kütləvi informasiya vasitələrinin dili ilə bağlı bir çox işlər görülüb. Müşahidələrimiz göstərir ki, bu sahədə ciddi nailiyyətlər əldə olunub.




*"Gələcəkdə dilimizlə bağlı qaydalar bir az daha sərtləşdiriləcək. Dövlət dilini bilməyən şəxslər işə götürülməyəcək, məmurlar yüksək vəzifələrə təyin edilməyəcək"*

Dilçilik İnstitutu saytların və televiziyaların dili ilə bağlı monitorinqlər aparır. Aşkarlanan qüsurlar ictimaiyyətə açıqlanır, media orqanlarına qüsurların düzəldilməsi ilə bağlı məsləhətlər verilir. Dilçilik İnstitutu daim dillə bağlı qüsurların aradan qaldırılmasına çalışır. Çünki kütləvi informasiya vasitələri birbaşa kütləyə ünvanlanır və maarifləndirici funksiya daşıyır. Media nümayəndələri dil məsələsində ehtiyatlı olmalıdırlar.

Bilirsiniz ki, xeyli müddətdir aparılan monitorinqlərin nəticələri ilə bağlı müvafiq qurumlara xəbərdarlıq etdikdən sonra eyni xətalara təkrar yol verilərsə, cərimələrin tətbiq edilməsi məsələsi gündəmdədir. Dilin qayda-qanununa riayət etmək medianın borcudur.

Onu da deyim ki, ölkəmizdə dilin tətbiqi sahələrində olan qüsurların təhlili ilə bağlı xeyli sayda dilçilərin, ziyalıların məqalələri çap olunur. Həmin məqalələrdə dildə gedən proseslər diqqət mərkəzində saxlanılır və bu prosesin müsbət və mənfi cəhətləri araşdırılır. Bəzən sosial şəbəkələrdə, media orqanlarında dilimizdəki problemlərlə bağlı xoşagəlməz sözlər yazılır. Halbuki, vəziyyət o qədər də acınacaqlı deyil. Həmin çıxışlar pafos xarakterlidir. Dillə bağlı bütün məsələlər dövlətin nəzarətindədir. Cənab İlham Əliyev dilimizə böyük sevgi, diqqət və qayğısının bariz ifadəsi olaraq bildirdi: ”Əsrlər boyu bizi xalq kimi, millət kimi qoruyub saxlayan bizim ana dilimizdir, Azərbaycan dilidir. Azərbaycan dilinin qorunması hamımızın vəzifəsidir”. Onu da deyim ki, dilçilik sahəsində mövcud olan bütün problemləri bu sahənin üzərinə atmaq da doğru deyil. Dilçilik sahəsində yaşanan nöqsanların böyük əksəriyyəti cəmiyyətdənn qaynaqlanır. İnsanlarımız dilimizə qarşı çox səhlənkar yanaşır, başqa dillərə daha çox meyl edir.

**- Bəs, cəmiyyət niyə öz dilinə xor baxır?**

- Bu problem günümüzlə bağlı deyil. Tarix boyunca ana dilimizə qarşı ögey münasibət olub. Əvvəllər insanlarımız ərəb-fars dilini öyrənməyə, o dildə danışmağa meyil edirdi. Bu gün isə rus-ingilis dillərinə eyni formada meyiletmə var. Cəmiyyətin bir kəsimi üçün Azərbaycan dili hər zaman ikinci dərəcəli olub. Biz xarici dil öyrənməyin əleyhinə deyilik, amma ana dilimizi mükəmməl öyrəndikdən sonra. Bu məsələdə əsas sevgi lazımdır. Əgər sevgi olmasa, burada cəzaların heç bir əhəmiyyəti ola bilməz. Biz dil məsələsini inzibati müstəvidə həll eləsək, bu, dilə qarşı hörmətsizlik olar. Hesab edirəm ki, belə olan halda ictimai qınaq və sevgi olmalıdır. Yuxarıda da qeyd etdiyim kimi dil təkcə Dilçilik İnstitutunun problemi deyil, dil bütöv cəmiyyətin, millətin, xalqın problemidir.

Təhsil naziri Emin Əmrullayevin də ötən brifinqdə qeyd etdiyi kimi Azərbaycanda icbari təhsili dövlət Azərbaycan dilində təmin edir. Heç yerdə yazılmayıb ki, uşağı xarici dildə təhsilə cəlb etmək icbari məsuliyyəti, yaxud vəzifəsi var. Övladını rus bölməsinə qoymaq istəyən valideynlər tərəfindən bu, düzgün anlaşılmır.

Bizdə bəlli sayda rus bölməsində təhsil verən siniflər var və bu say sabitdir.

Bu, dövlətin yeritdiyi siyasətin tərkib hissəsidir. Gələcəkdə dilimizlə bağlı qaydalar bir az daha sərtləşdiriləcək. Dövlət dilini bilməyən şəxslər işə götürülməyəcək, məmurlar yüksək vəzifələrə təyin edilməyəcək. Bu sahədə çox ümidliyəm. Əsas odur ki, media və kino sahəsinin nümayəndələri dilimizə biganə yanaşmasın.

**- Şahlar müəllim, dərsliklərimizdə də kifayət qədər dil qüsurları var axı!?**

- O məsələyə də toxunacam mütləq. Ötən tədbirlərin birində rejissorlarla radio və televiziyalarda rastlaşdığımız nöqsanlarla bağlı söhbət aparırdıq. Onlar qeyd edir ki, ədəbi dildə danışanda heç kim bizə qulaq asmır. Axı ədəbi dil sadəcə kitab dili deyil. Filmlərimiz, efirlərimiz şifahi ədəbi dildə danışmalıdır. Bizim istəyimiz sadəcə orfoepiya qaydalarına düzgün əməl olunmasıdır. Dərslik məsələsinə gəldikdə isə sizinlə razıyam. Bununla bağlı da çoxlu iradlar səslənir. Amma Mərkəz olaraq dərsliklərlə bağlı monitorinq aparmaq səlahiyyətimiz olmadığı üçün bu barədə konkret fikir deyə bilmərəm. Amma ümumi müşahidələrim əsasında deyə bilərəm ki, dərsliklər yazılarkən bəzən elmi səhvlər də buraxılır. Yəni belə səhvlərin buraxılmaması üçün kitab bir neçə dəfə korrektə olunmalıdır. Xüsusən ekspertlər tərəfindən redaktə və korrektə olunmalı, sonra çapa buraxılmalıdır. Elmi səhvlərin olmaması üçün ekspertlər özləri mütləq savadlı olmalıdırlar. Bəzən dərsliklərimizdə elə səhvlər buraxılır ki, 2-ci sinif şagirdi belə həmin sözün yanlış yazıldığını başa düşür. Halbuki, bu, çox ciddi bir nöqsandır. Hər hansı nəşriyyatın çap etdiyi vəsaitdə belə bir nöqsan olsa müəyyən mənada anlamaq olar. Dərslikdə heç bir nöqsan olmamalıdır. Gələcəyimiz olan uşaqları yanlış öyrətmək, elə gələcəyimizi yanlış yönəltmək kimi bir şeydir. Odur ki, bu məsələyə aid olan şəxslərin, qurumların öz işlərinə məsuliyyətlə yanaşmaları çox vacibdir.

**- Bu gün KİV-lərdə, filmlərdə yol verilən yanlışlar, dil qüsurlarının kökü bəlkə də elə dərsliklərimizdəki problemdən qaynaqlanır?**

- Razıyam! Biz problemi cəmiyyətin dilimizə qarşı sevgisizliyi ilə əlaqələndirib, həlli yolunu qəzetlərdə, televiziyalarda yol verilən səhvlərin aradan qaldırılmasında görürük. Hər hansı bir media orqanında çalışan jurnalistin yazısını, çıxışını monitorinq edib dilində qüsur tapırıq. Bu günün özündə belə ”da”-” də” ədatı ilə ismin yerlik hal şəkilçisini fərqləndirə bilməyən jurnalistlər var. Deməli, problemin həllinə təhsildən başlamaq lazımdır. Dilimizin qrammatikasını düzgün öyrənən şagird gələcəkdə hansı peşə sahibi olsa öz nitqində, yazısında dilimizin qayda-qanunlarına düzgün əməl edəcək.

**Şəymən Bayramova**

# Narkoman sürücülər sərnişin daşıyır

## Avtobus idarə edənlərin 50 faizi ümumiyyətlə nəzarətdən kənarda qalıb



Elməddin Muradlı: ”Nə vaxt ki avtobus parkı təzələnəcək, qarajlar olacaq, sürücü reysə çıxmazdan əvvəl tibbi müayinədən keçiriləcək, avtomobil texniki baxımdan yoxlanılacaq, o zaman neqativ situasiyalar aradan qalxacaq”

**DİN-in Baş Dövlət Yol Polisi İdarəsinin Ekoloji Nəzarət Bölüyünün əməkdaşları narkotik maddənin təsiri altında avtobus idarə edən şəxsi saxlayıblar. Nazirlikdən bildirilib ki, Ekoloji Nəzarət üzrə YPX Bölüyünün əməkdaşları ”İsuzu” markalı, 90-RB-466 dövlət qeydiyyat nişanlı avtobusun sürücüsü Məhərrəmov Nicat Məmməd oğlunun sənədlərini yoxlayarkən sürücünün hərəkətləri şübhə doğurub. Onun tibbi müayinədən keçməsi təmin edilib.**

Müayinə zamanı N.Məhərrəmovun narkotik maddə qəbul etməsi müəyyən edilib. O özü də narkotik istifadəçisi olduğunu etiraf edib.

N.Məhərrəmov barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən inzibati protokol tərtib edilərək baxılması üçün məhkəməyə göndərilib.

Məhkəmənin qərarı ilə N.Məhərrəmov nəqliyyat vasitəsini idarə etmək hüququ 2 il müddətinə məhdudlaşdırılmaqla 20 gün müddətində inzibati qaydada həbs edilib.

**Nəqliyyat məsələləri üzrə ekspert, ”Avtosfer.az” saytının rəhbəri Elməddin Muradlı ”Şərq”ə açıqlamasında bildirib ki, avtobuslarda sürücülərin tibbi müayinəsi ciddi şəkildə həyata keçirilməlidir:**

”Belə halların qarşısını almaq üçün nəzarət mexanizmi güclü olmalıdır. Çox təəssüf ki, hələ də Bakı və ətraf kənd, qəsəbələrdə avtobus, mikroavtobus sürücülərinin təxminən 50 faiz üzəri diqqətdənkənardır. Onlar nəqliyyat vasitələrini şəxsi əmlakı kimi idarə edir, qaraja aparmır.

Yeyir, içir, spirtli içki, narkotik qəbul edir və xidmətə çıxır. Sərnişindaşımanın verdiyi üstünlüklərdən istifadə edib, qayda pozuntularına yol verirlər. Fikirləşir ki, onsuz da yol polisi içi sərnişin dolu marşrutu saxlamır. Yaxşı haldır ki, yol polisləri artıq belə durumlara qarşı diqqəti gücləndirib.

Ona görə də həmin sürücülər daha rahat əllərini, qollarını sallayıb, gəzməsinlər.

Gec-tez hamısı aşkarlanacaq, cinayətə cəlb olunacaqlar. Sadəcə, qanunvericilikdə müəyyən qədər boşluqlar var. Spirtli içkinin təsiri altında olmaqla narkotik maddənin büruzə verdiyi vəziyyət arasında çox fərq var. Adam narkotik aludəçisi olduğunu etiraf edir.

Deməк ki, həmin sürücü ümumiyyətlə, cəmiyyətdən təcrid edilməlidir. Xüsusilə də ictimai nəqliyyatın sükanı arxasına keçdiyini nəzərə alaraq, uzunmüddətli həbs cəzası verilməlidir. Başqa insanların həyatına təhlükə yaratdığına görə haqqında ölçü götürülməlidir. Həmçinin avtobuslar yenilənməlidir. Bakı Nəqliyyat Agentliyi (BNA) ictimai nəqliyyat vasitələrini inkişaf etdiririk, deyə-deyə çökdürüb.

Bu gün insanlar yollarda, küçələrdə qalıb. Nə vaxt ki avtobus parkı təzələnəcək, qarajlar olacaq, sürücü reysə çıxmazdan əvvəl tibbi müayinədən keçiriləcək, avtomobil texniki baxımdan yoxlanılacaq, o zaman neqativ situasiyalar aradan qalxacaq”.

**Sücayət Mehti**

# Dələduzluğun yeni dalğası

## Elan saytları vətəndaşların mədəni şəkildə vəsaitlərini oğurlayır

**Son zamanlar vətəndaşlara qarşı onlayn dələduzluq faktlarına tez-tez rast gəlinir. Növbəti dələduzluq nümunəsi elan saytlarıdır. Bu oğurluğu kiber dələduzluğun yeni dalğası adlandıran İT məsələləri üzrə ekspert Fərid Pərdəşünas insanları diqqətli olmağa çağırıb.**

Son günlər bu məsələnin ciddi problemə çevrildiyini vurğulayan ekspert qeyd edib ki, zərərçəkənlər 2500, 5000 AZN itiriblər. Dələduzluğun yenə də mənbəyi elan saytlarıdır. Amma metod bu dəfə fərqlidir:

”Satışa qoyulan əşyalara xarici nömrələrdən alış üçün mesajlar gəlir. Lakin bu dəfə dələduzlar ənənəvi olaraq kart məlumatı istəmirlər. Satışa qoyduğunuz məhsulu almaq üçün sizdən şəxsiyyət vəsiqənizi istəyirlər ki, guya, real adam olduğunuzu yoxlasınlar. Siz onlara vəsiqənizin şəklini göndərəndə, FIN kodunuz vasitəsilə bir-bir mobil bankların tətbiqlərində şifrə bərba əməliyyatları edib, müştərisi olduğunuz bankı tapırlar. Daha sonra sizi manipulyasiya edib, guya, ödəmə etmək üçün nömrəyə gələn kodu istəyirlər. Zərərçəkmişlər heç bir bank məlumatı vermədiyini düşünürək, rahatlıqla həmin kodu qarşı tərəfə deyirlər.



Beləcə, bank tətbiqi dələduzun əlinə keçir və dələduz hesablarınızın hamısına giriş edərək ”card to card” əməliyyatlara başlayır”.

**Ekspertin fikrincə, kiber dələduzlardan qorunmaq üçün vətəndaşlar şəxsi məlumatlarını tanımadıqları adamlarla bölüşməsin:**

”Kiberdələduzluğun yeni metodu ilə bağlı xəbərdarlığımdan sonra dəhşətli mesajlar alıram. İnsanlar 3000-5000 manat həcmində vəsaitləri elan saytlarında itiriblər. Son yazan 3 zərərçəkənin itirdiyi məbləğin cəmi 12 min manatdan çoxdur. Ölkə xaricindən edilən bu dələduzluqlar böyük bir mafiya və dələduz qruplaşması tərəfindən idarə olunur. Çox təəssüflə bildirirəm ki, bu itən pulları 99 faiz hallarda geri qaytarmaq mümkün deyil. Bu və ya digər kiber hücum növü ilə rastlaşmısınızsa, mütləq mənə bildirin”.

Onun sözlərinə görə, elan saytlarında kiber hücum qurbanı olmamaq üçün 4 qayda var: ”Görmədiyiniz adama məhsul satmayın. ”WhatsApp” və zəng ilə sizinlə əlaqəyə keçənlərə kart məlumatlarınızı verməyin. Alıcıya şəxsiyyət vəsiqənizi göndərməyin. 3D təhlükəsizlik kodunu qardaşınız da olsa ona göstərməyin. Bu kod yalnız və yalnız kart sahibi üçün olur”.

**Şəymən**

# İsti havalarda daha çox diqqətli olmaq lazımdır

## Dərman zəhərlənmələrinin sayı artıbsa, bu artıq ciddi siqnaldır



**Havaların isti keçməsi zəhərlənmələrin sayını da artırıb. Təqdim edilən statistikaya baxdıqda zəhərlənmələrin müxtəlif səbəblərdən baş verdiyi görünür. Lakin təəccüb doğuran məhz dərman zəhərlənmələrinin üstünlük təşkil etməsidir. Ümumilikdə iyul ayı ərzində Kliniki Tibbi Mərkəzə zəhərlənmə ilə bağlı 880 nəfər müraciət edib. Bu barədə KTM-dən bildirilib.**

Onlardan 158-i Mərkəzin Toksikologiya şöbəsinə yerləşdirilib, digərləri isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Qəbul olan xəstələrdən 100-ü dərmandan, 22-si sirkə turşusundan, 4-ü qida zəhərlənməsindən, 7-si etil spirtindən zəhərlənib. Digərlərindən 1-i anaflaksiya səbəbindən, 7-si allergik reaksiya səbəbindən xəstəxanaya yerləşdirilib. Həmçinin onlardan 17-ni ilan sancıb. Zəhərlənən şəxslərin 66-sı qadın, 72-i kişi, 20-si isə uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 5 nəfər dərman zəhərlənməsindən, 1 nəfər sirkə turşusundan, 1 nəfər isə alkoqollu içkidən dünyasını dəyişib. Dünyasını dəyişən şəxslərdən 4-ü qadın, 3-ü kişidir.

**Dərman zəhərlənmələrinin sayı niyə çoxdur? Suala cavab verən Təcili Tibbi yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, zəhərlənmə halları yay ayları üçün gözləniləndir:**

- Zəhərlənmələr yay aylarında xarakterikdir. Bir yandan isti hava, temperatur yüksəkliyi, insanların soyuq içkilərə, sərinliyə meyl etməsi, soyuducuda saxlanılan qidalardan daha çox istifadə etmələri, ”sərinləyim”, deyə soyuq su, soyuq içkiləri həddindən artıq çox qəbul etməsi, həm mədə-bağırsaq pozuntusuna, həm də soyuqlamaya, bunun nəticəsi olaraq da xəstələnmələrə, qızdırma, boğaz ağrısına səbəb olur. Əlbəttə, burada yoluxma statistikasında son günlər müşahidə edilən artımın da rolu var. Bildiyimiz kimi koronavirusun daha bir neçə yeni ştammı ortaya çıxdı, yoluxma sayı artdı, bunlar hamısı əhali arasında xəstələnmələrə, yoluxmalara səbəb oldu. İsti havada qidalanmaya xüsusi diqqət verilməlidir. Yağlı, ağır yeməklərdən uzaq durmaq lazımdır. Qidaların saxlanma şəraitinə, istifadə müddətinin bitib-bitmədiyinə diqqət edilməlidir. İsti havada qidalar çox tez pozulur, tərkibində dəyişiklik baş verir və zəhərlənmələrə gətirib çıxarır. Hazırda fast-fud yeməkləri geniş yayılıb və isti havalarda bu, çox təhlükəlidir. Qida zəhərlənmələri ilə yanaşı, dərmandan zəhərlənmələrin də sayı artıbsa, bu artıq ciddi siqnaldır. Problem bundadır ki, vətəndaşlar bəzən həkim təyinatı olmadan, dərmanlar qəbul edir. Kimsə hansısa dərmanı məsləhət görür, insan da orqanizmi üçün bu dərmanın uyğun olub-olmadığını bilmədən qəbul edir. Hər orqanizm individualdır və həkim məsləhəti, həkim təyinatı olmadan dərman preparatı qəbul etmək, yaxud hansısa preparatın inyeksiya formasında orqanizmə yeridilməsi zəhərlənmələrə, insanın şoka düşməsinə, hətta ölümə də səbəb ola bilir. Birincisi, vətəndaş xəstələnmənin səbəbini, xəstəliyinin nədən ibarət olduğunu bilməlidir. Bu müəyyənləşəndən sonra həkimin təyinatı üzrə müalicəyə başlamalıdır. Hazırda mədə-bağırsaq pozuntuları, ishal da çox yayılıb. Lakin bunun virus mənşəli, yoxsa qidadanmı, yaxud soyuqlamanın təsiri ilə olduğu, əvvəlcə müəyyənləşməlidir. Virus mənşəli xəstəliyin müalicəsiylə, bildiyimiz adi mədə, bağırsaq soyuqlaması fərqlidir və müalicə üsulları da başqadır. Məsləhətimiz budur ki, vətəndaşlar əllərinə keçən dərmanları qəbul etməsin. Qeyri-müəyyən, orqanizmdəki pozuntulara adekvat olmayan dərmanları qəbul etmək təhlükəlidir. Dərmanların saxlanma şəraitinə də diqqət edilməlidir. Dərman preparatları istehsalçının, əczaçıların məsləhət bildiyi formada və şəraitdə saxlanmalıdır. İnsanlar var ki, baş ağrısına qarşı, gün ərzində bəzən 3-4 ”Nimesil” qəbul edir. Bizim əhali ”Nimesil” ”həvəskarı”dır. Əlbəttə, gün ərzində 3-4 ”Nimesil” içən adam zəhərlənəcək.

Həkim bildirdi ki, isti havalarda kimyəvi zəhərlənmələrdən də ehtiyatlı olmaq, spirtli içkilərdən uzaq durmaq lazımdır.

**Məlahət Rzayeva**



# Hələ çox bələdiyyə sədrləri həbs olunacaq

## Korrupsiyaya qarşı atılan addımların effekti hiss edilir

**Abşeron rayonu Saray bələdiyyəsinin sədrinin törətdiyi əməllər ifşa olunub. İqtisadiyyat Nazirliyi yanında ƏMDX-nin və ayrı-ayrı bələdiyyələrin vəzifəli şəxsləri qanunsuz əməllər törədib.**

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi üzrə istintaq başlanılıb. İstintaq zamanı bir sıra vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin edilib. Qabaqcadan əlbir olan bir qrupun bələdiyyə torpaqlarının satışının həyata keçirilməsi ilə əlaqədar müvafiq rəy verilməsi müqabilində rüşvət almalarına əsaslı şübhələr müəyyənləşib.

Abşeron rayon Saray bələdiyyəsinin sədri Məhi Həsənov, habelə ƏMDX-nin Xaçmaz ərazi şöbəsinin müdiri Aydın Cəfərov, Qəbələ ərazi şöbəsinin müdiri Bağı Məsimov və Sumqayıt şəhər bələdiyyəsinin şöbə müdiri Şıxəli Abbasov rüşvət alma maddələrində təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği Birliyinin sədri Vüqar Tofiqli ”Şərq”ə söyləyib ki, indiyədək bələdiyyə sədrlərinin həbsinin böyük əksəriyyəti orqanların məsuliyyətsizlik və ya qeyri-qanuni addımların nəticəsində baş verib:** ”Fevral ayında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 4 saylı Abşeron Ərazi İdarəsinin bəzi əməkdaşlarının qanunsuz əməllərə yol verdiyi məlum oldu. Cinayət işi ilə əlaqəli Saray qəsəbəsinin bələdiyyə sədrinin də sözügedən məsələyə görə həbs edildiyini düşünürəm. Həbslərin çoxu mülkiyyətə dair anlaşılmazlıq və qanunsuzluqlara görədir. Maarifləndirmə işi nəticəsində həbslərin sayı azalır. Dövlət müəyyən tədbirlər görür. Seminarlar, görüşlər keçirilir, tövsiyə məktubları göndərir. Amma digər orqanlardakı neqativ hadisələr dolayısıyla bələdiyyədən gəlib keçir. Ona görə də bələdiyyə qanunsuzluğun içinə daxil olur. Korrupsiyaya qarşı atılan addımların effekti hiss edilir”.

**Aygün Tahir**

**Elan**

Məmmədov Nizami Ələmdar oğluna məxsus 061382 saylı Qarabağ veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Türkiyə Cümhuriyyəti vətəndaşı Arif Kaçar Kayhan oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Verilir Mehrəliyeva İradə Sabir qızına, ondan ötrü ki, Bakı şəhəri, Yasamal rayonu, Zərdabi küçəsi 3166 məhəllədə inşa edilən 3-cü yaşayın binasının, -6.70 səviyyəsində yerləşən 1 A (bir) saylı kladovkanın dəyəri tam ödənilib. Bu kladovkaya görə ”Sevinc-M” MMC-yə borcu yoxdur.

”Star OFSET” MMC-nin direktoru Abbasov Yamen Əkbər oğluna məxsus (VÖEN 1000699441) möhür itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2177

## Rusiyada son 100 ilin anomal istiləri gözlənilir



**Rusiyanın 15-dən çox regionunda 32 dərəcədən yuxarı isti gözlənilir.**

Bakupost.az xəbər verir ki, bu Rusiya üçün yay normasından 5-8 dərəcə yüksəkdir Hətta soyuq Yakutiyada da bu yay isti keçəcək. Hava orada 25 dərəcəyədək isinəcək. Metereoloqlar artıq dövlət qurumlarına və əhaliyə xəbərdarlıq edib. Mütəxəssislər dünyanın yeni klimatik normalara keçdiyini deyərək, bir azdan anomal istilik termininə alışacağımızı bildirir. Hava normaları artıq 20-30 il əvvəlki normalar deyil. Yer kürəsi daha isti klimata keçib, və biz buna alışmalıyıq.

## Pike razılaşdı

Uşaqları Şakiraya 400 min avroya verəcək



**"Barselona"nın müdafiəçisi Jerar Pike keçmiş sevgilisi, pop ulduz Şakiranın ümumi övladlarını ABŞ-a köçürməsinə razılıq verib, lakin bununla bərabər futbolçu iki şərt irəli sürüb.**

"Bizim media" xəbər verir ki, idmançı israr edir ki, müğənni 400 min avro borcunu ödəməlidir və oğulları Milan və Saşanı görə bilməsi üçün ona hər il İspaniyadan ABŞ-a və geriyə təyyarənin birinci sinifinə aid 5 uçuş üçün bilet almalıdır. Xatırladaq ki, Pike və Şakira 2011-ci ildən münasibətdədir, lakin cütlüyün nikahı heç zaman qeydə alınmayıb. İkili ötən ay ayrıldıqlarını açıqlayıblar. Əsas mübahisəli məqamlardan biri də uşaqların qəyyumluğu məsələsi olub. Şakira Kataloniyada yalnız Pikeyə görə yaşadığı üçün onunla ayrıldıqdan sonra oğullarını da özü ilə ABŞ-a aparmaq qərarına gəlib, lakin futbolçu bununla əvvəlcə razılaşmayıb. O, sıx iş qrafikinə görə başqa ölkəyə tez-tez uçuşlar edə bilmədiyini səbəb gətirib.

*Qeyd edək ki, Şakiranın həyatında təkcə bu çətinliklər deyil. Belə ki, bu yaxınlarda İspaniya prokurorluğu vergi fırıldaqları ilə bağlı Şakiraya səkkiz il iki ay həbs cəzası istəyib.*

## Yeni villa aldılar

**Məşhur cütlük bunun üçün 5 milyon xərclədi**



**Türkiyəli aktrisa Gökçe Bahadırla həyat yoldaşı musiqiçi Emir Ersoy yeni villa alıb.**

**Axşam.az xəbər verir ki, Alaçatıda nikah masasına əyləşən cütlük evi də elə buradan seçib. İkili birgə yaşayacaqları mülkə 5 milyon lirə (təxminən 473 min 685 manat) ödəyib.**

***Qeyd edək ki, Gökçe sonuncu dəfə "Evlilik hakkında her şey" serialında rol alıb.***

## Britninin memuarlarının nəşri yubanır



**Pop ulduzu Britni Spirs xatirə kitabı üzərində işini başa çatdırıb.**

**Oxu.az xəbər verir ki, lakin hazırda ABŞ-da yaranan kağız qıtlığı əsərin nəşrini yubadır. Məlumata görə, xatirə kitabının çapı "Simon & Schuster" nəşriyyatı tərəfindən həyata keçirilməlidir.**

**Spirs və onun komandası kitabın 2023-cü ilin yanvarında satışa çıxacağını gözləsələr də kağız qıtlığı bu planları pozub.**

**Hazırda problemin nə vaxt həll olunacağı məlum deyil.**

## Boşanandan 1 ay sonra sevgilisi ilə görüntüləndi



**Türkiyəli aktrisa Naz Elmasdan boşanan iş adamı Erol Özmandıracı ötən gün Bodrumda görüntülənib.**

**Axşam.az xəbər verir ki, iş adamı yeni sevgilisi ilə səmimi şəkildə papartsilərin obyektivinə tuş gəlib .Fotoların sosial mediada qısa müddət ərzində yayılmasının ardından izləyicilər Erolun ünvanına "Nazı tez unutdu" deyə, yazıb.**

***Qeyd edək ki, 2019-cu ildə ailə həyatı quran cütlük ötən ay boşanıb. İkili arasında 16 yaş fərq var idi. Naz sonuncu dəfə "Evlilik hakkında her şey" serialında rol alıb.***

## Tom Kruz qızı ilə fəxr edir

**"Suri hələ müğənni karyerası haqda düşünmür"**



**Hollivud aktyoru Tom Kruzun 16 yaşlı qızı Suri anası Keti Holmsun filmində müğənni kimi debüt edib.**

**Oxu.az xəbər verir ki, aktrisa "Alone Together" romantik komediyasını lentə alıb. Suri isə filmin saundtrekini ifa edib.**

**"Qızım çox istedadlıdır. Lakin Suri hələ müğənni karyerası haqda düşünmür. O, hələ orta məktəbdə oxuyur", - filmin rejissoru olan Holms bildirib.**



# Özəl təyyarələri ilə havanı zəhərləyirlər

## Məşhurlar sosial mediada qınaq obyektinə çevrilib

**Özəl təyyarələriylə "havalanan" məşhurlar ətraf mühitə vurduqları ziyan səbəbiylə tənqidə tuş gəlir. Qlobal iqlim dəyişikliyinin dünyanın başına dərd olduğu bir zamanda şəxsi təyyarələriylə səyahətlər vaz keçməyən məşhurlar sosial mediada qınaq obyektinə çevrilib. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, bu barədə "The Guardian" material dərc edib. Dərgi ətraf mühitə ən çox ziyan vuran məşhurların siyahısını tərtib edib.**

Dünya "ulduzları"nın havanı çirkləndirmə əmsalı isə onların şəxsi təyyarələriylə nə qədər uçuş həyata keçirmələri ilə ölçülür. "The Guardian" yazır ki, 17 dəqiqəlik uçuş 1 ton karbondioksidin havaya yayılması deməkdir, bu isə bir nəfərin ildə havaya ötürdüyü karbon qazının dörddə biri deməkdir. Məşhurlar avtomobil və ya havaya daha az karbon buraxan minik vasitələrindən istifadə etmək əvəzinə, hətta ən yaxın məsafələrə də daha komfortlu olsun və ehtişamlı görünsünlər deyə şəxsi təyyarələriylə uçmağı üstün tuturlar, bu da havanın daha çox çirklənməsinə səbəb olur. Siyahının başında ABŞ realiti-şou "ulduzu" Kylie Jenner gəlir. Onu Drake və Taylor Svift "təqib edir". Bu məşhurlar və daha bir neçəsi şəxsi "Twitter" hesablarındakı paylaşımlarıyla gündəmə gəlib. Kylie Jenner özünün və sevgilisi Travis Scottun şəxsi təyyarəsi önündə çəkilmiş fotosunu paylaşaraq "Mənimki ilə uçaq, yoxsa səninki ilə?" qeydini edib. Bu da təqibçilər tərəfindən sərt tənqid edilib. Jenner bir ştat - Kaliforniya daxilində bir şəhərdən digərinə şəxsi təyyarəsiylə uçub. Bu uçuşun ətraf mühitə vurduğu ziyan, nə qədər maliyyəyə başa gəldiyi də yazılıb. Halbuki, "ulduz" həmin məsafəni 40 dəqiqəyə avtomobillə gedə bilərdi və havaya daha az zəhərli qaz buraxmış olardı. Bu səbəbdən Jenner "iqlim canisi" adlandırılıb. Kanadalı repçi Drake də son 6 həftə ərzində 7, 12 və 14 dəqiqəlik uçuş həyata keçirib. Lakin təqibçilərin etirazını görən repçi özünün təyyarədə olmadığını, təyyarələrin yalnız bir yerdən digərinə daşındığını deyib. Taylor Svift isə havanı ən çox zəhərləyən isim olub. Deyilənə görə, müğənni şəxsi təyyarəsini başqalarına icarəyə də verir və bununla ətraf mühitə daha çox ziyan vurur. Siyahıda Elon Musk, Floyd Mayweather, Jay-Z, Alex Rodriguez, Blake Shelton, Steven Spielberg, Travis Scott da var.



**Məlahət**



# Dünya türk xəstədən danışır

## Əvvəlcə HİV və "Covid"ə, daha sonra meymun çiçəyinə yoluxdu

**Əvvəlcə HİV-ə yoluxdu, sonra pandemiya zamanı "Covid"ə yaxalandı. Keçən iyun ayında isə meymun çiçəyi virusuna görə 11 gün xəstəxanada yatdı və təxminən 3 həftə karantində qaldı.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, İngiltərədə yaşayan 35 yaşlı Harun Tulunayın bir vaxtlar meymun çiçəyi ilə bağlı təcrübəsini bölüşməsi dünyanın gündəminə çevrilib. Tulunay başına gələnləri danışıb.

Keçən iyun ayında İngiltərənin paytaxtı Londonda meymun çiçəyi diaqnozu qoyulan türk Harun Tulunay Avropada bu xəstəliklə bağlı təcrübəsini sosial mediada açıq şəkildə paylaşan ilk xəstə olub.

Tulunayın açıqlamaları Birləşmiş Millətlər Təşkilatının (BMT) və ÜST-nin rəsmi internet saytlarında da paylaşılıb.

Tulunay 2015-ci ildə İngiltərədə məskunlaşdığını, 2016-cı ilin iyununda HİV-ə yoluxduğunu və pandemiya dövründə "Covid"ə yaxalandığını deyib və meymun çiçəyi diaqnozu ilə bağlı təcrübəsini ümumiləşdirib: "İyun ayının əvvəlində yüksək hərarət və həddindən artıq qızdırma, üşütmə, tərləmə, limfa vəzilərinin şişməsi ilə xəstələndim. Bir həftə qızdırmam düşmədi. Sonra tüpürə bilmədiyim üçün xəstəxanaya yerləşdirildim. 3 gün sonra testim müsbət çıxdı".

Tulunay, ilk dəfə 30 il əvvəl rast gəlinən və hazırda təsiri tam bilinməyən bir xəstəliklə otaqda təkbaşına karantində qalmağın böyük bir travmaya səbəb olduğunu söyləyib.



"Xəstəxana otağında dörd divar var, pəncərəsi belə açılmır. Həkimlər içəri girəndə yüksək qoruyucu kostyum geyinir, girəndə toxunduğunuz heç bir şeyə toxunulmur, otağınıza girən heç bir şey yenidən çölə çıxmır. Gördüyünüz tək şey həkimlərinizin qoruyucu geyimində olan iki gözüdür. Təbii ki, qorxuludur. O zaman buradakı (Türkiyədə) dostlarımla danışıb ağlayırdım, əcəba ölürəmmi? Heç nə yaxşıya getmir deyə əndişələnirdim".

Tulunay, HİV-in pozitiv diaqnozu də daxil, heç bir şeyin buna bənzəmədiyini vurğulayaraq, xəstəliyin yaratdığı ümidsizlik bir yana, bir də qapalı yerdə, ətrafdan təcrid olunmuş durumda yaşamanın çox sarsıdıcı olduğunu vurğulayıb.

**Turan**

## Qanda şəkər çox yüksəlir

Qarpızla yemişi eyni vaxtda yemək zərərlidir



**Həkimlər insanları yayda qarpızla yemişi çox və birgə yeməyin zərəri barədə xəbərdarlıq edib.**

Bakupost.az xəbər verir ki, klinik laboratoriya həkimi Anna Safonova bostan meyvələrinin ayrılıqda yeyilməsini tövsiyə edib. "Yayda qarpız yemiş birlikdə yeyilir. Bu 2 qida yüksək qlikemik indeksə malikdir, ağır şəkər miqdarı çoxdur. Qarpız və yemiş ayrı-ayrılıqda bir iki dilim yeyildikdə belə, qanda şəkər çox yüksəlir. Təsəvvür edin, eyni vaxtda 2 şəkərli meyvə qana qlükoza sıçradır. Bu həm insulin dirənçi olanlara, həm şəkəri olanlara, həm piylənmədən əziyyət çəkənlərə böyük zərbədir. Qarpızla yemişin böyrəklərə təsiri də fərqlidir. Qarpız daha çox sidikqovucudur. Kəskin qastrit və pankreatiti, böyrək, öd daşları olanlara bu 2 meyvə birlikdə qəti olmaz. Hamilələr gündə hərəsindən ayrı-ayrılıqda bir dilim yeyə bilər. Qarpız yemiş güclü allergen ola bilər. Allergiyası olanlar diqqətli olsun".

## Əhaliyə xəbərdarlıq edildi

Ən güclü maqnit qasırğası proqnozlaşdırılır



**2022-ci ilin avqustunda müxtəlif intensivlikdə bir neçə maqnit qasırğası proqnozlaşdırılır. Ən güclülər avqustun 16-dan 22-dək Yer kürəsini əhatə edəcək.**

Milli.Az xəbər verir ki, yayın son ayında gözlənilən fırtınaların cari cədvəli dərc edilib. Avqustun 3-dən 9-a və 12-dən 21-ə kimi narahat olmaya bilərsiniz. Avqustun 1-də zəif maqnit qasırğası gözlənilir. 2-3-də cüzi dalğalanmalar mümkündür, bu da həssas insanların rifahına xüsusilə təsir etməyəcək. Avqustun 10-da iki gün davam edəcək orta intensivlikli tufan gözlənilir. Mütəxəssislər bu dövrdə fiziki fəaliyyətdən, spirtli içkilərdən, yağlı qidalardan və tonik içkilərdən imtina etməyi tövsiyə edirlər. Avqustun 16-dan 22-dək güclü maqnit qasırğası gözlənilir. Maqnit fonuna həssas olan insanlar ağır işdən əl çəkməli və həkimin təyin etdiyi dərmanları qəbul etməlidirlər. Avqustun 29-da cüzi günəş aktivliyi proqnozlaşdırılır, xoşagəlməz simptomlar yarana bilər. (bizimyol.info)

*Qeyd edək ki, insanlarda maqnit qasırğaları çox vaxt baş ağrısı, miqren, ürək döyüntüsü, yuxusuzluq, sağlamlıq vəziyyətinin pisləşməsi, gümrahlığın azalması, təzyiqin düşməsi ilə müşayiət olunur. Alimlər bunu onunla əlaqələndirirlər ki, maqnit sahəsi dəyişdikdə kapilyar qan dövranı ləngiyir və toxumalarda oksigen aclığı yaranır. Maqnit qasırğalarının insan orqanizminə təsirini həyat tərzində müəyyən dəyişikliklər etməklə əhəmiyyətli dərəcədə azaltmaq olar. Bunun üçün istirahət, fiziki fəaliyyət və qidalanma rejimi böyük əhəmiyyət kəsb edir.*